

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

30 iyul
2024-cü il,
çərşənbə axşamı
№ 134 (6720)
Qiyməti
60 qəpik


# Sülhə maneə - 5 aprel paktının gizlinləri...





Bax səh. 2

## Xarici investisiyalara açıq ölkə

Bax səh. 3

## Çindən Azərbaycana və Avropaya...




Bax səh. 3

## Böhtan kampaniyalarının ünvanı dəyişmir...

Bax səh. 4

### Xaricdəki Azərbaycan evləri

Bu gün Azərbaycan diasporu öz inkişafının ən yüksək mərhələsini yaşayır. Dövlətimizin düşünülmüş diaspor siyasəti nəticəsində xaricdəki həmvətənlərimizin daha mütəşəkkil formada təşkilatlanması prosesi gün keçdikcə yeni mərhələlərə qədəm qoyur. Soydaşlarımız yaşadıqları...

Bax səh. 5

### Pensiyalar nə qədər artırılacaq?

2025-ci ilin yanvarın birindən etibarən bütün növ əmək pensiyalarında artımlar olacaq. Eyni zamanda, yardımların verilməsi ilə bağlı təkliflər də təqdim olunub və bu istiqamətdə müzakirələrin aparılması növbəti dövrlərdə hansı istiqamətdə qərarların veriləcəyini bəlli edəcək. Qeyd edək ki...

Bax səh. 3

### Avropaya sülh gəlir?

Rusiya-Ukrayna müharibəsi ətrafında illərdir formalaşan siyasi duman get-gedə çəkilməkdədir. Situasiya yeniləndikcə siyasi ambisiyalar özünün köhnə görüntüsünü itirir. Başqa sözlə, dünənə qədər kollektiv Qərbin "gücünə" arxayın olan, maddi-hərbi dəstəyin sonsuzluğa qədər davam edəcəyi kimi fikrə düşən Ukrayna prosesi artıq soyyuqqanlı təhlil etməyə başlayıb. Ümumi gedişatın onun əleyhinə yönəldiyini və kilid...

Bax səh. 6

### Kamala Harris - haradan, haraya...

Co Baydenin ABŞ prezidentliyinə növbəti dəfə namizəd olmayacağı ilə bağlı xəbər əslində, gözlənilən hal idi - yaşlı və səhhəti ilə bağlı kifayət qədər problemləri müzakirə edlən "yaşlı demokrat"ın bu marafonda onsuz qələbə qazanma ehtimalı olduqca aşağı idi. Amma onu...

Bax səh. 7

## Olimpiya tarixində rəzalət

Bax səh. 4



## "Borrelin idarəsi" qənaət rejiminə keçir...

Bax səh. 6



## Yaxın Şərqdə yeni gərginlik...

Bax səh. 6



# Venesuela Bolivar Respublikasının Prezidenti Zati-aliləri cənab Nikolas Maduro Morosa

Hörmətli cənab Prezident,

Venesuela Bolivar Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan-Venesuela münasibətlərinin dinamik inkişafı məmnunluq doğurur. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında dostluq əlaqələrinin, həm ikitərəfli, həm də çoxtərəfli qaydada qarşılıqlı faydalı əməkdaşlığın uğurla davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bir daha Sizə təbriklərimi və ən xoş arzularımı çatdırır, dost Venesuela xalqının rifahı naminə məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 iyul 2024-cü il***

# Sülhə maneə - 5 aprel paktının gizlinləri...

## Kəşfiyyat dronları yeni eskalasiyanın anonsudur?

**Ermənistan yenidən hərbi təxribatlara əl ataraq bölgədə eskalasiya təhdidi formalaşdırmaqdadır. Artıq bir müddətdir ki, sülhlə bağlı prosesləri qeyri-rəsmi də olsa, ikinci plana keçirən İrəvan açıq şəkildə təhdid yaratmağa davam edir. Bəzi hallarda ikitərəfli görüşlərdən yayınmağa çalışan, həm media, həm də sosial şəbəkələr vasitəsilə guya Azərbaycanın hansısa “hücum ehtimalını” irəli sürən Ermənistan bu yolla özünün hərbi təxribatlarını pərdələməyə çalışır. Halbuki, Ermənistan özü müharibə istəyindən geri çəkilmir - Fransa tərəfindən silahlandırılması, ABŞ tərəfindən hərbi təlimlərə cəlb edilməsi onu göstərir ki, İrəvan dildə sülhə sadiq olduğunu desə də, əməldə sülhdən uzaqdır. Yeri gəlmişkən, iyulun 28-də Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter Azərbaycan Ordusunun Laçın rayonu istiqamətində yerləşən mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib. Bununla bağlı Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilir ki, iyulun 28-də saat 17:40 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter Ordumuzun Laçın rayonu istiqamətində yerləşən mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib. Bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunan növbəti pilotsuz uçuş aparatının fəaliyyətinə xüsusi texniki vasitələrlə müdaxilə edilib və ərazidən uzaqlaşdırılıb.**

### Son 10 gündə mütəmadi hal alan hərbi təxribatlar...

Vurğulayaq ki, bu təxribat Ermənistanın bu ayda əl atdığı ilk təxribat deyil - son on gündə İrəvan Azərbaycana qarşı mütəmadi atəşkəsi pozub. İyulun 20-si Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini iriçaplı silahlardan atəşə tutub. Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

İyulun 25-də isə Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter Ordumuzun Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi istiqamətindəki mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib.

Bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunan pilotsuz uçuş aparatının fəaliyyətinə xüsusi texniki vasitələrlə müdaxilə edilib və ərazidən uzaqlaşdırılıb. Xatırladaq ki, Londonda keçirilməsi nəzərdə tutulan görüşlərlə



eyni vaxta təsadüf edən bu təxribatların alt mahiyyətində nələrin dayanması hər kəsə bəllidir - Müdafiə Nazirliyinin bununla bağlı bəyanatında da bildirilirdi ki, Ermənistan tərəfindən bu kimi təxribatların törədilməsi davamlı xarakter daşıyır: “Amerika Birləşmiş Ştatlarının Ermənistanda keçirdiyi hərbi təlimlər, Fransanın Ermənistanı öldürücü silahlarla təchiz etməsi və Avropa İttifaqı tərəfindən “Avropa Sülh Fondu” adı altında Ermənistana ilkin mərhələdə on milyon avro dəyərində hərbi yardımın göstərilməsi işğalçı Ermənistanı bu kimi təxribatlar törətməyə həvəsləndirir və Azərbaycana qarşı növbəti müharibəyə hazırlaşdırılmasına dəlalət edir. Müdafiə Nazirliyi bir daha xəbərdarlıq edir ki, Ermənistan və onun havadarları Cənubi Qafqaz regionunda yeni müharibə ocağı yaratmaq kimi niyyətlərindən çəkinməlidirlər. Ölkəmizə qarşı bu kimi təxribat əməlləri dayandırılmadığı təqdirdə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin arsenalında olan bütün vasitələrdən istifadə etməklə özünü müdafiə məqsədilə lazımi cavab tədbirləri görüləcəkdir. Bildiririk ki, regionda vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin və onun havadarlarının üzərinə düşəcəkdir”.

### Ermənistan yenidən təhdid yaradır...

Qeyd edək ki, Ermənistanın sülh prosesindən uzaqlaşaraq yenidən hərbi qarşıdurma yolunu seçməsi təsadüfi deyil. Bu ilin əvvəlində hətta iki ölkə arasında bir sıra ərazilərin delimitasiya və demarkasiyasının belə tutmasını göz önünə gətirsək, İrəvanın öz istiqamətini dəyişməsinin səbəblərini fərqli rakurslardan izah etmək olar:

-Kənar müdaxilələrə arxayınlıq;

-Ukrayna müharibəsi fonunda regionda yeni siyasi-hərbi situasiya yaranması “ehtimalı”;

- Avropanın, xüsusilə Fransanın bölgəyə müdaxiləsi üçün ilkin şərtləri formalaşdırmaq istəyi;

- Nəhayət, Qərb ilə İrəvan arasındakı 5 aprel görüşünün arxa planı fonunda üzə çıxan həqiqətlər...

Təbii ki, bütün təhlillər birmənalı şəkildə Ermənistanın fərqli dairələr tərəfindən bu məsələyə təhrik olunması ehtimalını gücləndirir - çünki, Ermənistan ötən 4 il ərzində ölkəmizə qarşı təxribatların hansı nəticələr yarada biləcəyini əyani surətdə görüb. Bu səbəbdən də, indiki halda İrəvanın yenidən öz “vəd”inə xilaf çıxaraq sülhdən yayınmasında xarici təsirlərin gücü böyükdür.



### Hərbi təlimlər, yoxsa vizual “dəstək kampaniyası”...

Başqa diqqət çəkən məqam isə Ermənistanda ABŞ və Ermənistan hərbçilərinin iştirakı ilə iyulun 15-dən 24-dək keçirilən “Eagle Partner” (“Qartal tərəfdaşlığı”) hərbi təlimləridir. Qeyd edək ki, təlimlərdə Ermənistan silahlı qüvvələrinin sülhməramlı briqadası, ABŞ ordusunun Avropa və Afrikadakı hərbi qulluqçuları və Kanzas Milli Qvardiyası iştirak edib. Təlimin keçirilməsi ilə bağlı yayılan rəsmi məlumatda onun beynəlxalq sülhməramlı missiyalarda iştirak edən bölmələrin koordinasiya səviyyəsinin yüksəldilməsi, idarəetmə və taktiki rabitə sahəsində təcrübə mübadiləsinin aparılması, döyüş hazırlığının artırılması kimi məqsədlər qeyd edilsə də, əsl mahiyyətin fərqli olması hər kəsə bəllidir. Qərb bütün vasitələrlə Ermənistanı öz caynağından buraxmaq niyyətində deyil və bunu fərqli yollarla həm də nümayiş etdirməyə çalışır. Düzdür, Qərb Ermənistanı fərqli oyunlar üçün istifadə etsə də, İrəvandan alət kimi istifadə edilməsinin əsas hədəfi Bakı olmasa da, Ermənistan bu “dəstəkdən” ruhlanır. Nəticədə, hətta sülh prosesini “iqnor” edərək yenidən hərbi “manevrlər” arzusuna düşür. Bu isə ilk növbədə Ermənistanın özü üçün müsbət heç bir şey vəd etmir.

### Paris və Delhi İrəvanı silahlandırır...

“Ermənistan və təxribat” frazaları birgə səslənirsə, ağıla ilkin ehtimal kimi mütləq şəkildə Fransa gəlir. Parisin bu günə qədər ölkəmizə qarşı bütün müstəvilərdə apardığı antikampaniyalarda fərqli dairə və mərkəzlərin, hətta təşkilat və ölkələrin “yardımına baş vurması” sirr deyil. Son 4 ilin siyasi statistikasına nəzər salsaq, Paris ölkəmizə qarşı beynəlxalq arenalarda müxtəlif tipli kampaniyalar aparmaqla yanaşı, işğalçı Ermənistanı açıq və ya gizlin şəkildə silahlandırıb. Bu kimi faktlar onlarladır - ötən ay Ermənistanın müdafiə naziri Suren Papikyanın Parisə səfəri çərçivəsində imzalanan müqaviləyə görə, Fransa İrəvana yeni model silah verəcəyi öhdəliyini götürüb. KİV-in yazdığına görə, “Ermənistanla müdafiə sahəsində əlaqələrin gücləndirilməsinin davamı” kimi izah edilən bu müqaviləyə əsasən, İrəvana “Caesar” haubitsaları veriləcək. Xatırladaq ki, Fransanın Ermənistana göndərdiyi əvvəlki zirehli texnika aşağı keyfiyyətli idi - “Caesar” haubitsalarının göstəricisi isə bir az fərqlidir: bu silah 54 kilometr uzaqlıqdakı hədəfləri vurmağa imkan verir. “Caesar” zirehli yük avtomobilinə bərkidilmiş artileriya sistemidir.

Fransa bölgədə müharibəyə nail olmaq üçün bütün mümkün addımlara gedir - hətta, İrəvan birbaşa olmaqla yanaşı, dolayısı ilə də (Hindistanın əli ilə) silahlandırılır. Ermənistan ABŞ-la birgə hərbi təlimlər zamanı Hindistan istehsalı olan dəbilqəyə quraşdırılan termal görüntülü monokulyardan istifadə edib. Hindistanın “Tonbo Imaging” şirkətinin istehsalı olan bu avadanlıqlar Ermənistan ordusunda əvvəllər mövcud olmayıb. Hazırda isə Ermənistandan başqa Hindistan ordusu da “Spartan-SH” adlanan bu monokulyardan məhdud sayda əldə edir. Bütün bunlarla yanaşı, İrəvanın Hindistandan artilleriya sistemləri, “Pinaka” reaktiv buraxılış qurğularının, müxtəlif atıcı silahların, döyüş sursatı və partlayıcı maddələrini alması barədə məlumatlar da mövcuddur - 2020-ci ildə Ermənistan Hindistandan 40 milyon dollara dörd ədəd “Svathi” kontrbatareya atəş radarı əldə edib, lakin onlar Azərbaycanla müharibə zamanı uğurlu tətbiq edilmədi. Müharibədən sonra isə Ermənistan Hindistandan “Pinaka” reaktiv yaylım atəşi sistemini və “Akash” zenit raket kompleksini alıb. Lakin bu silahları Ermənistan müharibədən sonrakı dövrdə istifadə etməyib.



### 5 aprel paktının gizli şifrəsi bəlli olur...

Görünən real mənzərə ortadadır: Cənubi Qafqazda bu və ya digər şəkildə marağı olan, sülh prosesinə müdaxilə etmək istəyən, özünün mənafeyini prosesdə təmin etməyə çalışan güclər bu yolla məsələnin mahiyyətinin istiqamətinə yön verməyə  çalışırlar. Ermənistanı “silahlı tərəf” kimi qələmə vermək və onun arxasında olduqlarını nümayiş etdirmək üçün işlənən planın detalları da bəllidir - bunun üçün ilk növbədə Ermənistanı hərbi cəhətdən “dirçəltmək” niyyəti ortada idi ki, bunu da ABŞ və Fransa “öz üzərinə” götürüb. ABŞ ilə birgə hərbi təlim görüntüsü, Ermənistan siyasi rəhbərliyinin “NATO hərbi sisteminə transorfmasiya” ilə bağlı fikirləri, dövlətin təhlükəsizliyi ilə bağlı balansın Qərbin lehinə dəyişdirilməsi cəhdləri, sərhədlərin qorunması məsələsində ABŞ-Aİ hərbi kontingentinin rol oynaya bilmə imkanlarının təftişi 5 aprel görüşünün əsas mahiyyətinin ştrixlərini bir daha aktual edir. Bəlli olur ki, bu paktın əsas mahiyəti gizli hərbi danışıqlar, razılaşmalardır.

Bu plan isə qısa müddət ərzində ortaya çıxmayıb - hələ 2020-ci il Vətən müharibəsindən sonra bölgədə siyasi-iqtisadi reallıqların qurulmasına təsir imkanları əldə etmək istəyən Qərb ikili oyun oynamağı qətiləşdirmişdi - məsələn, Vaşinqtonun və Brüsselin sülhlə bağlı manipulyativ addımları da buna istiqamətlənmişdi. Eyni zamanda, onlar bölgədəki post-müharibə status-kvosunu saxlamaq üçün ciddi səylər göstərirdilər. Daha dəqiq desək, illərlə Azərbaycana və bütövlükdə, bölgənin inkişafına qarşı dəyənək kimi istifadə etdikləri “separatçı xunta” faktorunun aradan qaldırılmasını istəmirdilər. Amma Azərbaycanın qətiyyəti onların planını tam şəkildə sıradan çıxardı - 2023-cü il lokal antiterror tədbirləri Qərbi daha açıq “oynamağa” məcbur etdi. Bu dəfə Fransanın əli ilə Ermənistana təsir imkanlarını dəqiqləşdirən Qərb özünü himayədar qismində ortaya atdı - aylardır ki, həm Parisin, həm də Dehlinin İrəvana aktiv silah daşımasının altında məhz bu amillər dayanır.

***P.SADAYOĞLU***

# Çindən Azərbaycana və Avropaya...

## Orta Dəhliz rekord həcmdə daşınmalarla qlobal nəqliyyat dəhlizinə çevrilir



2024-cü ilin yanvar-iyun aylarında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə yükdaşımaların həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 65 artaraq artaraq 2,1 milyon ton təşkil edib. İlin sonunadək daşınmaların həcminin daha da artaraq 4,2 milyon tona çatdırılması planlaşdırılır. Yeri gəlmişkən, cari ilin birinci yarısında Azərbaycan da Orta Dəhlizlə yük daşımalarının həcminin 2023-cü illə müqayisədə 35 faiz artırıb. Çinin Sian limanından bu dəhlizlə ümumilikdə 60-dan artıq blok qatar yola salınıb.

Orta Dəhlizdə daşınmaların həcminin və dəhlizin geoiqtisadi əhəmiyyətinin artması Avropa İttifaqının da marağını bu bölgəyə daha çox fokuslayıb, Avropanın əksər ölkələri Mərkəzi Asiya-Xəzər -Avropa coğrafiyasına xüsusi önəm veərək bu bölgənin nəqliyyat infrastrukturlarının yenilənməsinə dəstək niyyətlərini bəyan edirlər. Belçika Krallığının Qazaxıstandakı səfiri Anri Vantigem bildirib ki, Mərkəzi Asiyadan Avropaya nəql edilən daşınmaların intensivliyini daha da artırmaq üçün əhəmiyyətli sərmayə yatırımları nəzərdə tutulur. Onun sözlərinə görə, Mərkəzi Asiya və Xəzər regionu təbii resusr və digər iqtisadi potensial baxımından son illərdə daha da inkişaf edir, bu bölgənin ehtiyatlarının nəqli Avropa üçün xüsusi maraq kəsb edir və resursların daha tez və maneəsiz daşınması üçün bütün zəruri logistika infrastrukturını yeniləməyə başlamaq lazımdır.

"The Europe Today" nəşrinin analitik şərhində isə bildirilir ki, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) bölgədəki iqtisadi potensialların sıx əlaqələndirilməsi baxımından hazırda ən strateji qlobal tranzit xəttidir. Orta Dəhliz Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və daha sonra Türkiyə və Avropa ölkələrinə qədər uzanan böyük bir nəqliyyat arteriyası kimi öz daşıyıcılıq imkanlarını artırmaqla digər tranzit xətlərini qabaqlayır. Xüsusilə də son 2 ildə regionda yaranmış yeni geosiyasi düzənin fonunda meydana çıxmış nəqliyyat-logistika xətlərinin şaxələndirilməsi reallıqları Trans-Xəzərin strateji rolunu artırıb.

Şimal dəhlizinə əsas alternativ olan Orta dəhlizlə Çindən Avropaya 12 gün ərzində 10 min km deyil, 7 min kilometr məsafə qət etməklə daşınmalar mümkündür. Avropa ölkələri ilə Çin arasında illik ticarət dövriyyəsi 600 milyard dolların üzərindədir və bu dəhliz dövriyyələrin artmasında xüsusi rol oyanamaqdadır. 2022-2022-cü illərdə bu dəhlizdə nəql edilmiş yükün ümumi həcmi 4 milyon tona qədər artıb.

Bu layihənin yaradıcılarından və əsas təşəbbüskarlarından biri kimi Azərbaycanın

yaradıcılıq səyləri də diqqəti cəlb edir. Xüsusilə də Orta dəhlizin bir hissəsi kimi Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyəti xüsusi qeyd edilməlidir. Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun Rusiya və Mərkəzi Asiya Araşdırmaları Mərkəzinin direktoru Çianq Siaoy Azərbaycanın Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üçün liderliyini də yüksək dəyərləndirib və bu məsələdə rəsmi Pekinin ölkəmizdə siyasi-iqtisadi dəstəyini ifadə edib. Cənab Siaoyun qənaətinə görə, Çin Orta Dəhlizin ən axıcı və hərəkətverici qoluna çevrilə biləcək Orta Dəhlizə dəstək verir və bu sahədə Azərbaycanla birgə zəruri addımlar atmağa hazırdır.

Çin və Azərbaycanın artan təşəbbüskarlığı sayəsində Mərkəzi Asiya ölkələrinin Trans-Xəzərə cəlb olunması daha da aktuallaşıb və hüquqi-iqtisadi əsaslar yaranıb. 2024-cü ilin mart ayında Qazaxıstan Prezidenti Qasım-Comərd Tokayevin Azərbaycana dövlət səfəri zamanı Siandan Bakıya gələn konteyner qatarının birgə qarşılanma mərasimi keçirilib və bu, Çin-Qazaxıstan-Azərbaycan nəqliyyat ittifaqının faktiki nümayişi kimi yadda qalıb. Qazaxıstan Çinlə iqtisadi-ticari münasibətlərin inkişafı fonunda Pekinin bu dəstəyinə arxalanaraq TransXəzərə olan ehtiyacını bəyan edib. Digər Mərkəzi Asiya ölkələri də bu dəhlzin imkanlarını dəyərləndirərək eyni mövqe nümayiş etdirir. Özbəkistanın, Qırğızıstanın, Tacikistanın dövlət başşılarının son dövrlərdə Azərbaycana səfərləri zamanı ən aktual mövzulardan biri də məhz Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin yaradılması ilə bağlı olub.

Qeyd edək ki, Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) qeyri-rəsmi Zirvə görüşündə də Şərq-Qərb nəqliyyat dəhlizinin ən axıcı qolu kimi Trans-Xəzərin əhəmiyyətinə toxunulub və TDT ölkələri tərəfindən imzalanan Qarabağ Bəyannaməsində Orta Dəhlizə inteqrasiyanın gücləndirilməsində dair niyyətlər ifadə olunub. Bəyannamədə Orta Dəhlizin daha rentabelli və dayanıqlı işləməsi üçün TDT ölkələri tərəfindən nəqliyyat və tranzit prosedurlarının optimallaşdırılması və rəqəmsallaşdırılması, daha çox yükdaşıma həcminin artırılması məqsədilə özəl sektor üçün stimullaşdırıcı mexanizmlərin tətbiqi nəzərdə tutulur. Bu məqsədlə tərəflər dəniz limanları, dəmir və avtomobil yolları, logistika qovşaqlarının əsaslı şəkildə yenidən qurulması və infrastrukturların təmirinə investisiyalarını cəlb edilməsi, nəqliyyat əməliyyatları və gömrük prosedurlarının optimallaşdırılması üçün üzərinə öhdəliklər götürüb. TDT-nin xüsusi maraq və diqqətində olan Zəngəzur dəhlizi də Trans-Xəzərin mühüm tərkib hissəsi hesab olunmaqla Çin-Mərkəzi Asiya-Avropa bloku üzrə nəqliyyat əlaqələrinin şaxələndirilməsini təmin edəcək ən qısa marşrut kimi dəyərləndirilir.

Azərbaycan öz siyasi-iqtisadi iradəsini nümayiş etdirməklə bərabər, vaxt itirmədən Orta Dəhiləz inteqrasiyanın müasir tələblərinə uyğun nəqliyyta həllərini həyata keçirib, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin modernləşdirilməsi, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının yükgötürmə və yükötürmə gücünün artırılması, yolboyu mal və nəqliyyat vasitələrinə gömrük nəzarətinin sürətləndirilməsi üçün əhəmiyyətli tədbirlərin görülməsi Orta Dəhlizin perspektiv güc balansına hesablanıb.

***E.CƏFƏRLİ***




# Xarici investisiyalara açıq ölkə

## "Fitch" reytinqimizi "BBB-" səviyyəsinə yüksəltdi

**"Fitch Ratings" beynəlxalq kredit reytinq agentliyi iyulun 26-da Azərbaycanın uzunmüddətli xarici valyutada reytinqinin bir pillə artırılaraq "BBB-" səviyyəsinə, yəni investisiya dərəcəli reytinqə yüksəldilməsi barədə qərar qəbul edib. Ölkəmizin reytinqi 8 il idi ki, "BB+" səviyyəsində, müsbət proqnozla təsdiqlənmişdi, yeni reytinq göstəricinin müəyyən edilməsi Azərbaycanın iqtisadi və maliyyə sektorunda baş verən irəliləyişlərdən qaynaqlanır. Belə ki, ölkəmizin suveren reytinqimizin investisiya dərəcəsinə qaytarılması, reytinq üzrə proqnozun isə "Stabil" olaraq təyin edilməsi həyata keçirilən makroiqtisadi və monetar siyasət, institusional islahatlar, investisiya mühitinin yaxşılaşdırılması, dövlət borcunun, xüsusilə xarici dövlət borcunun aşağı səviyyəsi və digər ardıcıl və çoxşahəli islahatların beynəlxalq miqyasda qiymətnləndirilməsinin təzahürü hesab edilə bilər.**

### "BBB-" reytinqi nəyi ehtiva edir?

İlk öncə qeyd edək ki, qlobal iqtisadi mühitdə hələ də davam edən mürəkkəb geosiyasi risklər və qeyri-sabitlik və şəraitində "Fiç Reytings" tərəfindən Azərbaycanın uzunmüddətli yerli və xarici valyutada reytinqinin "BBB-" investisiya səviyyəsində təsdiq olunaraq proqnozun "pozitiv"də saxlanılması ölkə iqtisadiyyatının dayanıqlıq potensialını nümayiş etdirir. Mövcud reytinq qiymətləndirməsi müəyyən edilərəkən Azərbaycanın cari balansı üzrə göstəricilərə xüsusi diqqət yetirilib. Ölkəmizin maliyyə sektorunun həddindən artıq dözümlü olması, valyuta-bank sisteminin sağlamlığı, real sektorun bütün bölmələrində artım tempinin davam etməsi həyata keçirilən makroiqtisadi siyasətin səmərəliliyini yüksəldib və böhranın bütün fazalarının ölkəmizə mənfi təsirlərinin qarşısının alınması milli valyutanın dəyərinin möhkəmlənməsinə əlverişli zəmin yaradıb. Belə ki, ötən il ticarət əməliyyatları üzrə balans müsbət dinamika ilə müşayiət edilib, cari hesabın profisiti ixracın müsbət saldosu hesabına böyüyüb. 2023-cü ildə neft qiymətlərinin aşağı düşməsinə baxmayaraq, cari balans olduqca qənaətbəxş səviyyədə qalıb, "Fitch Ratings"in analitiklərinin qənaətinə görə, Azərbaycanın xarici valyutada uzunmüddətli reytinqi 2024-2025-ci illərdə də profisitlə davam edəcək. Bu vəziyyət suveren aktivlərin dayanıqlılığını da təmin edəcək. Belə ki, hazırda Azərbaycanın valyuta aktivləri 70 milyard dollara yaxınlaşıb və strateji ehtiyatların 80 faizi Dövlət Neft Fonduna (DNF) məxsusdur. Növbəti illərdə enerji gəlirlərinin sabitliyi fonunda DNF-nin investisiya portfelində rekord yüksək gəlirlilik qalacaq. Hazırda ölkənin strateji ehtiyatları ÜDM-in təxminən 70 fazini təşkil edir ki, bu da güclü təhlükəsizlik yastığı deməkdir. Azərbaycanın xalis aktivləri 2024-2025-ci illərdə də sabit qalacaq ki, bu da eyni qrup ölkələr arasında ən yüksək göstərici hesab oluna bilər. Bununla yanaşı, Azərbaycanın güclü maliyyə vəziyyətinin təmin olunmasında qeyri-enerji amillərinin də təsiredici rolu az deyil. Belə ki, Azərbaycanda neft hasilatı həcmlərinin azaldılması və enerji gəlirlərinin əvvəlki illərə nisbətən aşağı düşməsinə baxmayaraq, qeyri-neft sektorunun güclü artımı ilə maliyyə gəlirlərinin artımı kompensasiya edilib ki, bu da, büdcə xərclərinin neft daxilolmalarının azalması və digər mənbələr hesabına stimullaşdırılmasına səbəb olub. Bu tendensiyanın qarşıdakı illərdə davam edəcəyi gözlənilir ki, bu da maliyyə sabitliyinin qeyri-neft dayaqları üzərində köklənməsinə işarədir. Bu xüsusda növbəti illər ərzində Azərbaycanın fiskal və tədiyyə balansının müsbət səviyyəsi dəstəklənəcəkdir.

"Fitch"in bu reytinqi həm də ona dəlalət edir ki, Azərbaycanın güclü milli valyuta ehtiyatları və suveren fondları milli valyutanın sabitliyi üçün də dayanıqlılığı təmin edir. Yəni, mövcud ehtiyat portfeli manatın xarici valyuta qarşısında məzənnəsinə ciddi təsir və təzyiq edəcək amilləri tamamilə neytrallaşdırır. Reytinqdə əsas faktorlardan biri kimi xarici borc amili də mühüm yer tutur. Azərbaycan hazırda regionda xarici borcun ÜDM-də nisbətinə görə, ən yaxşı ölkıələr qrupundadır. Ölkəmizdə borcun ÜDM-də payı 8 faizə bərabərdir. Beynəlxaql praktikada xarici borcun ÜDM-də nisbəti 50 faizi ötdükdə bu, təhlükəli hədd sayılır. Borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyinə də mənfi təsir göstərir. Azərbaycan xarici borcun bu nisbətinə görə, MDB, Asiya və Şərqi-Avropa regionu ölkələrinin əksəriyyətindən xeyli yaxşı mövqedədir. Həmçinin, Azərbaycanda inflyasiya ilə bağlı vzəiyyət də qənaətbəxş qiymətləndirilir. 2023-cü ildə 9%-ə enmiş inflyasiyanın 2024-cü ildə 4,5%-ə qədər azalacağı proqnozlaşdırır ki, bu da yüksək əmtəə qiymətlərini azaldacaq.

"Fitch" beynəlxalq reytinq agentliyi Azərbaycanın kredit reytinqi ilə bağlı nikbin proqnozu investisiya və maliyyə sektorları üçün də ümidverici ssenarilərə zəmin yaradır. "BB+"kredit reytinqinin təsdiq edilməsi ölkəmizə beynəlxalq maliyyə qurumları tərəfindən etimadın ötən dövr ərzində qorunub saxlanılmasının bariz göstəricisidir.Mövcud kredit reytinqi və ölkəmizin investisiya qabiliyyətinin yüksək göstəricisi kimi səciyyələndirilə, beynəlxalq səviyyəli investisiya reytinqi sayıla bilər. Bu, respublikamızın potensial investor və dünyada sərmayəçi ölkə kimi imicinin möhkəmlənməsinə də beynəlxalq inamı artırır.

"Fitch Ratings" real iqtisadi vəziyyəti və investorların Azərbaycanın kredit riskinə münasibətlərini obyektiv

### "BBB-" reytinqi Azərbaycanın investisiya mühiti üçün nə vəd edir?

və adekvat şəkildə ifadə edərək ölkəmizin beynəlxalq kredit reytinqinin yenidən investisiya səviyyəsinə yüksəldilməsinə qərar verməklə digər beynəlxalq reytinq agentliklərinin də adekvat atmasına zəmin yaradıb. Çox güman ki, bu qərardan sonra dünya ölkələrinin investisya reytinqini müəyyən edən "Moody's Rating", "Standard & Poor's" reyting agentlikləri də oxşar mövqedən çıxış edərək Azərbaycanın kredit reytinqini investisiya səviyyəsində təsdiq edəcək.

***E.CƏFƏRLİ***

# Pensiyalar nə qədər artırılacaq?

2025-ci ilin yanvarın birindən etibarən bütün növ əmək pensiyalarında artımlar olacaq. Eyni zamanda, yardımların verilməsi ilə bağlı təkliflər də təqdim olunub və bu istiqamətdə müzakirələrin aparılması növbəti dövrlərdə hansı istiqamətdə qərarların veriləcəyini bəlli edəcək. Qeyd edək ki, pensiyadakı artımlar indeksləşdirmə və eyni zamanda yardımların verilməsi formasında həyata keçirilir. Əmək pensiyaları hər il yanvar ayında indeksləşdirilir və bu, əvvəlki ildə orta aylıq əmək haqqıdakı artım faizinə uyğunlaşdırılır. Bu baxımdan növbəti ildə pensiya artımı faizi 2024-cü ildəki orta aylıq əmək haqqıdakı artıma uyğun olaraq müəyyənləşəcək.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü il iyunun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,4 faiz artaraq 1003,3 manat olub. İlin sonunda bu rəqəmin daha da artacağı gözlənilir. Cari ilin sosial-iqtisadi inkişaf proqnozlarına əsasən, 2024-cü ilin yekununda orta aylıq əməkhaqqının 10-12 faiz civarında olacağı ehtimal olunur. Bu isə pensiyaların həmin faiz-rəqəmə uyğun artacağını şərtləndirir. Belə ki, hazırda pensiyası 400 manat təşkil edənlərin növbəti il yanvarın 1-dən pensiyaları 40-50 manat civarında artacaq. Əgər əmək pensiyalarında yardım düsturu da əlavə olunsa, pensiyaların daha çox artması mümkün olacaq.

Əmək pensiyalarının indeksləşdirilməsi ilə bağlı yeni tədbirlər ölkəmizdə həyata keçirilən sosial siyasətin növbəti təzahürü kimi vətəndaşların dayanıqlı sosial təminatına yönələn siyasətin davamıdır. Dünya təcrübəsində pensiya islahatları başlıca olaraq sərt sığorta prinsiplərinin güclənməsinə yönəlsə də, Azərbaycanda bu islahatlar ilk növbədə pensiyaçıların maraqlarına, pensiyaların davamlı artımına, sosial təminat sistemində humanist yanaşmaların güclənməsinə xidmət edir. Bunun göstəricisi kimi, hər ilin əvvəlində pensiyalarda əhəmiyyətli artımlar edilir, eyni zamanda 2019-cu ilin əvvəlindən fərdi hesabında ən kiçik məbləğdə belə pensiya kapitalı qeydə alınanlara 25 il sosial sığorta stajı hədiyyə olunur. Habelə 2020-ci ilin əvvəlindən pensiya yaşına çatan, lakin pensiya hüququ yaranmayan şəxslərə yaşa görə müavinət almaq hüququ verilib və artıq 20 mindən çox şəxs bu hüquqdan yararlanıb. Eyni zamanda, ailə başçısını itirmiş ailələr üçün 2020-ci ilin əvvəlindən iki təminat növündən - ailə başçısını itir-




məyə görə pensiya və ya ailə başçısını itirməyə görə müavinətdən daha yüksək məbləğdə olanını seçmək, sağlamlıq imkanları məhdud uşaqlara sağlamlıq imkanları məhdudluğa görə müavinətlə birgə ailə başçısını itirməyə görə müavinəti və pensiyanı da almaq hüququ verilib.

Bu, sosial siyasət tədbirlərinə uyğun olaraq, 2024-cü il yanvarın 1-dən ölkədəki 1,1 milyon nəfər pensiyaçının pensiyaları 11,2 faiz artaraq orta pensiya məbləği 480 manata qədər yüksəlib. Ümumilikdə, son 5 ildə 4 sosial islahat paketinin icrası sayəsində pensiyaların artırılması davamlı xarakter daşıyıb və 2018-2023-cü illərdə minimum pensiya 2,5 dəfə artaraq 110 manatdan 280 manata, orta aylıq pensiya 2,1 dəfə artaraq 208 manat 436 manata yüksəlib. Eləcə də yaşa görə orta aylıq pensiya 2 dəfə artaraq 234 manatdan 467 manata çatıbdır. Pensiayların artımı ilə yanaşı, vətəndaşların fərdi hesablarında olan pensiya kapitalları istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq indeksləşdirilib. Cari ilin yanvarında ötən il üzrə qeydə alınmış 8,8 faiz inflyasiya rəqəmin uyğun olaraq bütün sığorta olunan vətəndaşların fərdi hesabındakı kapitalın indeskləşdirilməsi təmin olunub.



Bundan başqa, son illərdə aparılan sosial islahatlar çərçivəsində pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş addımlar atılır. Bir müddət əvvəl "Əmək pensiyaları haqqında" Qanununda dəyişiklik edildi və bütün əmək pensiyalarının indeksləşdirilməsi ilə bağlı qərar qəbul edildi. Bu istiqamətdə digər sosial xarakterli layihələrin icrası davam etdirilir ki, bunlardan biri də minimum pensiyaların normal həyat şəraitinə uyğunlaşdırılmasından ibarətdir. Ona görə də, pensiyaçılar üçün yaşayış minimumunun artırılması sosial dəstək paketləri qəbul olunan zaman minimum aylıq əmək pensiyasının məbləğinin artmasına da özü müsbət təsirini göstərəcək. Bu isə on minlərlə pensiyaçının əhatə olunması deməkdir.

Hazırda pensiya qanunvericiliyində nəzərdə tutulan köklü dəyişikliklər də vətəndaşların sosial təminat sahəsində hüquqlarının, pensiyaçıların sosial müdafiəsinin daha dolğun təminatına, onların daha üstün məbləğdə ödənişlər almalarına şərait yaradılmasına xidmət edir. Məhz bu islahatların nəticəsidir ki, "Əmək pensiyaları haqqında" qanuna edilmiş dəyişikliklərin qüvvəyə minməsi nəticəsində 2024-cü ildən etibarən xüsusi şərtlərlə pensiya təyin olunmuş şəxslərin, o cümlədən, hərbi qulluqçular, xüsusi rütbəli şəxslər və digər sosial qrupların pensiyaları da indeksasiya və sığorta mexanizmi əsasında yenidən hesablanaraq artırılıb.

Ölkəmizdə pensiya və digər sosial ödənişlərin artmının təmin olunmasında həyata keçirilən iqtisadi islahatlar da öz müsbət təsirlərini göstərir. Belə ki, "kölgə iqtisadiyyatına" qarşı mübarizənin gücləndirilməsi, əmək münasibətlərinin rəsmiləşdirilməsi sahəsində əsaslı dönüşün əldə edilməsidir ki, bu da dövlət və özəl sektorda həm əmək müqavilələrinin sayının artmasına, həm də uçotun şəffaflaşması sayəsində sosial verginin həcminin əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olur. Təkcə, 2018-2024-ci illərdə əmək müqavilələrinin sayında 50 faiz və ya 500 mindən çox artım qeydə alınıb. Həmçinin, ölkəmizdə aparılan sosial-iqtisadi islahatların müsbət nəticələrindən biri kimi məşğulluq imkanlarının və əmək haqlarının mütəmadi artımı və digər ardıcıl tədbirlər nəticəsində son 4 ildə davamlı olaraq sosial sığorta daxilolmalarında artım baş verib. Bütün bunlar isə büdcədə sosial xərclərin artmasına və həmin xərclər hesabına sosial sahələrə ayrılan vəsaitlərin həcminin yüksəldilməsinə güclü təminalar yaradır.Əldə olunan maliyyə imkanları əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında real ifadəsini tapır.

***Taleh***

# Böhtan kampaniyalarının ünvanı dəyişmir...

## Paris Olimpiadasında erməni təəssübkeşliyi

Olimiadaların ən əsas çağırışlarından biri dünyada həmrəyliyi gücləndirmək, irqi, milli-dini mənşəyindən asılı olmayaraq bütün insanlar arasında bərabərliyi, qardaşlığı təlqin etməkdir. Bunlar həm də Fransanın bəyan etdiyi prinsiplərdir. Ancaq təzad ondadır ki, bu ölkənin ev sahibliyi etdiyi 33-cü Yay Olimpiya Oyunları həm də milli-dini dözümsüzlüklə gündəmə gəlib. Burada söhbət həm də Azərbaycan idmançılarına qarşı qərəzli kampaniya aparılmasına şərait yaradılmasından, eyni zamanda, “France 2” kanalında ölkəmizlə bağlı təxribata yol verilməsindən gedir.

## Açılış mərasimində Azərbaycana qarşı qərəz

Paris - 2024 Olimpiadasında 140-dək ölkənin idmançılarının iştirakı rəsmiləşdirilib. Onların sırasında Azərbaycan komandasının yer alması bizim üçün son dərəcə qürurvericidir. Qeyd edək ki, Azərbaycan millisi Fransa paytaxtında 48 idmançı ilə təmsil olunur. Yığma 15 idman növü üzrə 17 proqramda çıxış edəcək. Parisdə iyulun 26-da baş tutan açılış mərasimində ölkələrin hansı sayda heyətlərlə Olimpiadaya qatıldıqları da bəlli oldu. Azərbaycanın Olimpiadada 48 nəfərlik heyətlə iştirak etməsi ölkəmizdə idmanın inkişafına göstərilən qayğının bariz nümunəsidir.

Azərbaycan komandası digər olimpiadalar kimi, Parisə də həm inamla, həm də xoş məramla yola düşüb. Ancaq burada da bədxahlarımız özlərinin çirkin niyyətlərini büruzə veriblər. Belə ki, onlar Olimpiadanın ruhuna uyğun olmayaraq erməni təəssübkeşliyini növbəti dəfə ortaya qoyublar. Buna aid iki fakta diqqət çəkək.

Beləliklə, sən demə, Beynəlxalq Xristian Həmrəyliyi (CSI) deyilən hüquq müdafiə təşkilatı Azərbaycan idmançılarına qarşı qərəzli kampaniyaya başlayıbmış. Qurum Beynəlxalq Olimpiya Komitəsindən (BOK) Azərbaycan idmançılarını Olimpiya Oyunlarından uzaqlaşdırmağı tələb edib. Bədnam təşkilat BOK-a müraciətini guya Ordumuzun “Dağlıq Qarabağ”da etnik təmizləmə aparması ilə əlaqələndirib. BOK-dan istənilib ki, təmsilçilərimizin Olimpiadada yalnız neytral statusda çıxış etmələrinə icazə verilsin. CSI-nin sözçüsü Coel Veldkamp bildirib ki, Azərbaycanın Olimpiya Oyunlarından kənarda qalması dünyaya düzgün mesaj verəcək: “Beynəlxalq idman dünyası insan hüquqlarının kobud şəkildə pozulmasına dözməyəcək və ya buna məhəl qoyacaq”, - deyə onun açıqlamasında bildirilir.

Paris Yay Olimpiya Oyunlarının açılış mərasimində Azərbaycanda haqlı narazılıqla qarşılanan daha bir oxşar insident yaşanıb. Belə ki, “France 2” telekanalının canlı yayımında aparıcılar Azərbaycan idmançılarına qarşı təxribat xarakterli açıqlamalar veriblər. Erməni komandasının keçidi zamanı kanalın aparıcılarından biri öz simpatiyasını gizlədə bilməyərək deyib: “Ermənistan, bizim erməni dostlarımız, tarixən fransızların ürəyinə yaxın bir ölkə”.

Aparıcı, həmçinin Qarabağdakı qondarma rejimin tarixdən silinməsi ilə bağlı təxribatçı fikirlər səsləndirib. Komandamızın keçidi zamanı aparıcı ölkəmizi “Ermənistanla ərazi məsələsində münaqişədə olan Qafqaz respublikası” kimi təqdim edib. Bu isə öz növbəsində şərhçinin Ermənistan komandası ilə bağlı fikirlərinə münasibətdə kəskin ziddiyyət təşkil edib və qərəzli olmasını göstərib.



Hər iki halda Olimpiya prinsipləri pozulub və ölkəmizə münasibətdə birtərəfli, selektiv yanaşmaya yol verilib. Bunun Avropada, Fransada baş verməsi isə heç də təsadüfi deyil. Bütün səmavi dinlər bəşəriyyəti bərabərliyə və humanizmə çağırır. Təəssüf doğuran haldır ki, bugünkü Avropada hətta dini dəyərlər belə manipulyasiya predmetinə çevrilib. Tam qətiyyətlə deyə bilərik ki, hazırda öz dəyərlərindən və ənənələrindən uzaqlaşan “qoca qitə”də bir sıra hallarda dini təəssübkeşliyə çağırışlar edilir, İslamofobiya həyat normasına çevrilir. Son illərdə Yaxın Şərqdə əsasən İslam dininə sitayiş edən insanların yaşadıqları coğrafiyalarda kədərli münaqişələr yaşanır, qanlı müharibələr səngimək bilmir. Bu münaqişələrin və müharibələrin ssenariləri isə bir qayda olaraq Qərb dairələrində hazırlanır. Sadə, günahsız insanlar aclıqdan, səfalətdən, dağıntılardan xilas olmaq naminə Avropaya üz tuturlar. Burada isə onların üzünə qapılar bağlanır. İslamofobiya ilə Mübarizə Gününə dair BMT-nin Qətnaməsində də qeyd edildiyi kimi dini inanclarla bağlı ayrı-seçkilik, dözümsüzlük və şiddət hallarının çoxalması dərin narahatlıq doğurur.

Vurğulamaq yerinə düşər ki, son bir ildə dünyada baş vermiş bütün anti-İslam təzahürlərinin 80 faizi Avropa ölkələrinin payına düşür.

## İslamofobiya, Azərbaycanofobiya siyasətinin növbəti təzahürü

O cümlədən Fransanın demokratik dəyərlərdən geri çəkildiyi bu ölkədə bir növ dövlət siyasəti səviyyəsinə yüksələn İslamofobiyanın timsalında da qabarıq şəkildə nəzərə çarpır. Bu ölkənin onilliklər boyunca Afrikada davam etdirdiyi müstəmləkə siyasətinin həm də irqçiliyə əsaslandığı heç kəsə sirr deyil. Bunun təzahürlərini, həmçinin ölkədə İslam dininə etiqad bəsləyən insanların diskriminasiyaya məruz qalmalarında müşahidə etmək mümkündür. Bunu Fransa cəmiyyətinin təmsilçiləri də etiraf edirlər. Bu ölkədə müxtəlif auditoriyalarda müsəlmanların Fransa cəmiyyətini zəbt etmələrinə dair mesajlar verilir. Eyni zamanda, İslam dininə mənsub insanlardan məsafə saxlanılır və onlar potensial terrorçu kimi təqdim edilirlər. Fransada işıq üzü görən “Charlie Hebdo” jurnalının səhifələrində dəfələrlə İslam dinini, Məhəmməd peyğəmbəri ələ salan karikaturalar yerləşdirilib. Bunu həm də Fransanın siyasi hakimiyyətinin mövqeyi kimi qəbul etmək mümkündür.

Tarixi mənəvi-dini dəyərlərinə böyük önəm verən Azərbaycan da İslamofobiyadan əziyyət çəkən ölkədir. Paris - 2024 çərçivəsində ölkəmizə qarşı yol verilən hər iki təxribat cəhdi bu və ya digər formada Azərbaycanla Ermənistan arasında yaşanan konflikt üzərindən edilib. Ancaq məsələ burasındadır ki, həm bədnam Beynəlxalq Xristian Həmrəyliyi hüquq müdafiə təşkilatı, həm də “France 2” erməni lobbisindən və Yelisey Sarayından aldıqları təlimatlara əsaslanmaqla 30 illik münaqişənin tarixinə varmırlar. Ermənistan tərəfindən torpaqlarımızın 30 illik işğalının ən ağır fəsadlarından biri də bəşəri əhəmiyyətə malik mədəni irsimizin, o cümlədən İslam dininə aid abidələrin qəsdən dağıdılması və məhv olunmasıdır. İlkin araşdırmalara görə işğal dövründə 65 məscidin yerlə-yeksan edildiyinə dair məlumatlar olsa da, təəssüf ki, bu rəqəmlər getdikcə daha da artır və İslam irsinə qarşı erməni vandalizminin çoxsaylı yeni nümunələri ortaya çıxır. Bundan əlavə, bu ərazilərdə yüzlərlə müsəlman qəbiristanlığının məhv edildiyi, müsəlman dini ibadət yerlərinin, məscid və türbələrimizin təyinatının dəyişdirilərək saxtalaşdırıldığı, bir çox hallarda isə tövlə kimi istifadə olunaraq orada dinimizdə haram sayılan heyvanların saxlanıldığı faktları aşkar edilir. Bu cür həqarət aktları yalnız bizim deyil, bütün dünya müsəlmanlarının hisslərini təhqir edir. Bəs Fransa hakimiyyəti, bəhs olunan bədnam hüquq mühafizə təşkilatı, “France 2” bu reallıqlara nə üçün göz yumur? Kor xristian təəssübkeşliyi dünyanı hara aparır? Bəşəriyyət üçün böyük risklər yaradan belə təhlükəli meylləri dayandırmaq lazımdır. Avropa, Fransa dünyaya eyni gözlə baxmalıdır, ayrı-seçkilik siyasətinə, milli-dini-irqi bölücülüyə son qoymalıdır.

Azərbaycana gəldikdə, bizim ölkəmiz tolerant mühitə malikdir. Azərbaycan dünya üzrə azsaylı ölkələrdəndir ki, multikulturalizmə qarşı çıxmır, əksinə onu təşviq edir. Başqa dinlərə və xalqlara dözümlü yanaşmaq respublikamızda tarixdən gələn bir ənənədir və biz bu ənənəni yaşatmağımızı özümüzün böyük üstünlüyümüz sanırıq.

## Azərbaycanın kəskin etirazları

Paris - 2024-ün açılış mərasimində Azərbaycana qarşı yol verilən təxribatlar ölkəmizdə ciddi etirazla qarşılanıb. “France 2”-nin təxribatı ilə bağlı Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi tərəfindən Beynəlxalq Olimpiya Komitəsinə rəsmi olaraq etiraz məktubu göndərilib. Məktubda qeyd olunub ki, dövlət telekanalının Azərbaycana qarşı bu cür hörmətsiz münasibəti Olimpiya Xartiyasının açıq-aşkar pozulmasıdır. Bu cür təbliğat oyunların ruhuna zidd olmaqla yanaşı, Azərbaycan və Ermənistan arasında sülh səylərini pozmağa xidmət edir. Buna görə də BOK-dan Paris-2024 Olimpiadası zamanı idmanın siyasiləşdirilməsinə qarşı qəti mövqe göstərilməsi, açıq bəyanat verməklə Fransa Hökumətinə, Fransa Milli Olimpiya və İdman Komitəsinə, eləcə də adıçəkilən telekanala etiraz bildirilməsi xahiş edilib. “Bu, faktiki olaraq Olimpiya Xartiyasının Əsas Prinsiplərinin pozulmasıdır. Həmin prinsiplər son illərdə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının bir neçə qətnaməsi ilə, o cümlədən açıq şəkildə “Olimpiya Xartiyasının əsas prinsiplərinin etirafı” (A/RES/78/10) ilə tanınıb və dəstəklənib. Xartiyada açıq şəkildə qeyd edilib ki, “BOK-un missiyası olimpizmi bütün dünyada təbliğ etmək, Olimpiya Hərəkatına rəhbərlik etmək, idmana və idmançılara qarşı hər hansı siyasi və ya kommersiya istismarına qarşı çıxmaqdır”, - deyə Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsinin birgə yaydıqları məlumatda vurğulanıb.

Paris - 2024-ün açılış mərasimində “France 2” tərəfindən Azərbaycana qarşı yol verilmiş təxribat ölkəmizdə cəmiyyət səviyyəsində də kəskin şəkildə qınanılır. O cümlədən Qərbi Azərbaycan İcması Fransanın Azərbaycana qarşı təxribatı ilə bağlı bəyanat yayıb. Sənəddə qeyd olunub ki, Qərbi Azərbaycan İcması 2024-cü il Paris Olimpiadasında Azərbaycana qarşı yol verilmiş təxribatı sərt şəkildə qınayır və Fransadan bu əməllərinə son verməyi tələb edir.

***Mübariz FEYİZLİ***

# Olimpiya tarixində rəzalət

## Xristian dünyası Yelisey Sarayını qınayır

Olimpiadalar tarix boyunca dünyada ən mötəbər idman yarışları və həmrəylik bayramı kimi qəbul olunub. Olimpiadaların yaratdığı irs həmişə beynəlxalq birlik üçün nümunə olub və yüksək dəyərləndirilib. İnsanlar uzun müddət bu irsin yaratdığı xoş duyğular altında yaşayıblar və növbəti olimpiadaları gözləyiblər. Bu mənada ev sahibi ölkələri həmişə öz məsuliyyətlərinin miqyasını anlayaraq olimpiadalara çox ciddi hazırlıqlar görüblər və bu olimpiadalar vasitəsilə dünyaya öz tarixlərini, mədəniyyətlərini, hazırkı reallıqlarını təqdim etməyə çalışıblar.

Parisin iyulun 26-dan avqustun 11-dək ev sahibliyi edəcəyi 33-cü Yay Olimpiya Oyunlarına da böyük maraq var idi. Bəli, Fransa tarixinə, mədəniyyətinə əsaslanmaqla Olimpiada vasitəsi ilə indiki həssas və gərgin dönəmdə dünyaya şox şey təqdim edə bilərdi. Təəssüf bu, baş vermədi və gözləntilər doğrulmadı. İyulun 26-da Sena çayında və onun ətrafında düzənlənən açılış mərasimində, sözün əsl mənasında, biabırçılıqlar yaşandı.

## Makronun uğursuz tezisi...

Fransa Paris - 2024-ün açılışına xoş əhval-ruhiyyə ilə deyil, ciddi narahatlıqlar doğuran insidentlərlə getdi. Belə ki, Oyunlara hazırlıq çərçivəsində Parisdə yarışların və açılış mərasiminin keçiriləcəyi ərazilərdən evsiz və qeydiyyatsız insanların şəhər ətrafına zorla köçürülməsi baş verdi. Bunun təhlükəsizlik məqsədilə edildiyinə dair açıqlamalar gəlirdi. Bununla belə, həmin insanların köçürüldükləri ünvanlarda normal yaşamaları üçün heç bir tədbir görülmədi. Başqa çoxsaylı nöqsanlar da sadalamaq mümkündür. Açılış ərəfəsində artıq hamıya bəlli idi ki, Olimpiada ilə bağlı təhlükəsizlik tədbirləri lazımi səviyyədə deyil. Parisə Fransanın regionlarından və Aİ ölkələrindən çoxsaylı polis qüvvələri cəlb edilməsinə baxmayaraq, şəhərdə terror riskləri tam şəkildə aradan qaldırılmayıb. Nəqliyyat infrastrukturunun iflic hala gətirilməsi bunun əyani təsdiqidir. Paris küçələrində kriminal ünsürlər də, necə deyərlər, at oynadırlar. Məsələn, oyunlardan bir neçə gün öncə Avstraliyadan olan 25 yaşlı gənc xanımın 5 nəfər tərəfindən Paris küçələrində zorlanması, Argentina futbol yığmasının şəxsi əşyalarının oğurlanması, oyunların açılış mərasimindən bir neçə saat öncə çempionatının bürünc mükafatçısı Zikonun taksidə yarım milyon avro məbləğində qarət olunması Parisdə kriminogen durumun nə qədər ağır olduğundan xəbər verir. İdmançılar Olimpiya kəndindəki dözülməz vəziyyətdən, o cümlədən də qida çatışmazlığından şikayət edirlər. Bəs görəsən Olimpiadaya hazırlıq məqsədilə ayrılan 11 milyard avro hara xərclənib? Bu sual başqa bir söhbətin mövzusudur.

Bütün bunlar ona dəlalət edir ki, Makron iqtidarı növbəti dəfə şöhrətpərəstlik edərək çiyinlərini götürə bilməyəcəyi yükün altına verib. Ancaq yuxarıda sadalanan faktlar Paris - 2024-lə bağlı heç də narahatlıq yaradan ən pis olaylar deyil. Fransa üçün üzqarası sayıla biləcək ən utanverici hadisələr məhz Oyunların Sena çayı və onun ətrafında düzənlənən açılış tədbirində baş verdi. Ümumi qənaət belədir ki, Parisdə baş tutan açılış mərasimi bütövlükdə Olimpiya tarixində bir rəzalətdir, rüsvayçılıqdır. Söhbət açılış mərasimində xristianların dini hisslərinin təhqir edilməsindən, cinsi azlıqların aqressiv təbliğatının aparmasından, satanizm elementləri və digər bu kimi hallardan gedir. Səhnələrdən birində peyğəmbər İsa Məsihin etikadan kənar obrazı yaradılıb. Olimpiadanın açılış tədbirinin dünyada necə böyük auditoriya ilə izləndiyini hər kəs yaxşı bilir. Biabırçı səhnələr yüz milyonlarla insana təqdim olunub.



Açılış mərasiminin ssenari müəlliflərinin hazırlıq mərhələsində Yelisey Sarayından hansısa tezislər almadıqlarını düşünmək sadəlövhlük olardı. Olimpiadalar bütün dövrlərdə siyasətdən uzaq tutulub. Ancaq belə görünür ki, Makron və onun komandası Paris - 2024-ü də siyasi manipulyasiya alətinə çevirməkdən və onun vasitəsilə özlərinin sahib olduqları əxlaqi keyfiyyətləri dünyaya ötürməkdən çəkinməyiblər. Makronun özünün və formalaşdırdığı hökumətin ayrı-ayrı təmsilçilərinin qeyri-ənənəvi oriyentasiyaları ilə bağlı müzakirələr çox aparılır. Açılış mərasimində cinsi azlıqların aqressiv formada təbliğatına hesablanan səhnələrin nümayiş etdirilməsi yada qeyri-ixtiyari olaraq “od olmayan yerdən tüstü çıxmaz” zərb-məsəlini salır.

## Fransa xalqına, dininə, tarixinə, dahilərinə hörmətsizlik

Bu günlərdə xarici nəşrlərdə yayılan məlumatlardan bəlli olur ki, Parisdə yaşananlar bütün dünya, xüsusilə də xristianlar tərəfindən ciddi tənqid atəşinə tutulub. Belə demək mümkündürsə, Yelisey Sarayı dünyanın qınaq obyektinə çevrilib. “The Guardian” şounu “şambolik və həddindən artıq iddialı” adlandıraraq, açılış mərasiminin Sena çayında keçirilməsinin minlərlə tamaşaçının məyusluğuna səbəb olduğunu bildirib. Qeyd olunub ki, bu, logistik problemlərə və tamaşaçıların şounu canlı izləyə bilməməsinə səbəb olub. “France 24”izdihamın təşkilini və idarə olunmasını tənqid edərək, tamaşaçıların çoxunun tribunaların dolu olması və giriş çətinliyi səbəbindən mərasimdən həzz ala bilmədiyini vurğulayıb. Digər mübahisəli məqam isə “Son Şam yeməyi”nin parodiyasını ifa edən “drag queens” qrupunun çıxışıdır. Bu, xüsusilə mühafizəkar və dini qruplar tərəfindən tənqidlə qarşılanıb. “Daily Mail” nəşri qeyd edib ki, belə “təxribat”lar qəzəb və dini hisslərə hörmətsizlik ittihamlarına səbəb olub. Marion Marechal və hətta “Tesla”nın baş direktoru Elon Musk bunu “xristianlara hörmətsizlik” və “təxribat” adlandırıb. BBC, həmçinin qalmaqala və dini hissləri təhqir etməklə bağlı ittihamlara səbəb olan “Son Şam yeməyi”nin parodiyasını yerinə yetirmək üçün “drag queen”lərdən istifadəni uğursuz konsepsiya adlandırıb. “Republic World” yüksək gözləntilərə baxmayaraq, mərasimin bəyan edilmiş ambisiyaları doğrultmadığını yazıb. Qəzet mərasimi “böyük bir tamaşa” kimi təsvir edib, lakin tamaşaçıların çoxu şounu tam görə bilmədiyi üçün məyus olub. “The Economis” Olimpiadanın parislilərə təsirindən yazıb. “Bəzi mağazalar və restoranlar sentyabr ayına qədər bağlıdır. Muzeylər son illərdə ən aşağı ziyarətçi saylarından birinə hazırlaşır. Hündür məftil hasarlar məhəllələri ayırır. Polis hər blokda dayanaraq kimlərin keçə biləcəyinə icazə verir. Paris COVID-19 səbəbilə artıq yaşanmış lokdaunu indi də hiss edir, sanki zombi hücumunu gözləyir”, - deyə nəşr vurğulayıb.

“XXXIII Yay Olimpiya Oyunlarının açılışı zamanı Fransa xalqına hörmətsizlik nümayiş olunub”. Bunu Fransa Nəsillər Assosiasiyasının prezidenti Tierri Pruvo (Thierry Prouvost) deyib. O, Fransa vətəndaşlarının Yay Olimpiya Oyunlarının açılışı zamanı şok yaşadığını bildirib: “Çünki Fransa xalqına, dininə, tarixinə, dahilərinə hörmətsizlik nümayiş olunub. Bu hörmətsizlik dövlətin gözü qarşısında baş verib. Dövlət sənət adı altında insanları şok halına salan təhqiramiz görüntülərin yayımlanmasına imkan yaradıb. Əksinə, dövlət qayda-qanun keşikçisi olmalıdır”, - deyə assosiasiya prezidenti vurğulayıb.





Tierri Pruvonun sözlərinə görə, kraliça Mari Antuanettanın musiqi sədaları altında başı kəsilmiş vəziyyətdə göstərilməsi Fransa xalqına olan hörmətsizlikdir: “Bu, yalnız zövqsüz bir sənət olmaqla məhdudlaşmır, bu insanlarda şok yaradan bir hadisədir. Səhnədə xristianların peyğəmbəri təhqir edilib. Bu, ümumilikdə, bütün xristianların təhqir edilməsidir. Çılpaq və saqqallı qadının səhnəyə çıxarılması isə təmamilə biabırçı bir hadisədir”, - deyə Tierri Pruvo hiddətini ifadə edib.

Makron açılış mərasimini yüksək dəyərləndirərək səhnələrdən vəcdə gəldiyini bildirib. Əlbəttə, ondan başqa qiymət gözlənilmirdi. Yelisey Sarayının hazırlıq ərəfəsində təşkilatçılara verdikləri siyasi sifarişlər öz yerində. Ssenari müəllifləri, həmçinin Makronun hansı mənəvi dəyərlərin daşıyıcısı olduğunu yaxşı bilirlər. Onlar Yelisey Sarayının sahibinin “zövqünü” oxşamaq üçün əllərindən gələni ediblər və bu zaman milyonlarla xristian insanının hisslərinin təhqir olunmasını heç veclərinə də almayıblar.

Olimpiadanın açılış mərasiminin səviyyəsi heç bir halda Makronun zövqü ilə ölçülə bilməz. İnsanlar bu korlanmış zövqü qəbul etmədiklərini Makronu fitə basmaqla növbəti dəfə ortaya qoydular. Bəli, Fransa prezidenti açılış mərasimində tamaşaçılar tərəfindən fitə basılıb. Bu barədə Fransanın “Vətənpərvərlər” partiyasının lideri Florian Filippo “X” sosial şəbəkəsində yazıb. Siyasətçi qeyd edib ki, “müəyyən auditoriya” Makronun gəlişindən açıq-aydın narazılığını ifadə edib, buna görə də “o, hətta çaşıb qalıb”.

Filippo öz paylaşımına Fransa liderinin çıxışı zamanı fit və qışqırıqların eşidildiyi qısa videonu əlavə edib. Onun sözlərinə görə, bu fraqment efirdə kəsilib, siyasətçi görüntünün yayılmasına çağırış edib.

## Avropa ölkələrinin baykota bərabər mövqeyi

Əksər Avropa ölkələrinin Parisdə açılış mərasiminə qatılmağa lüzum görməmələri Makronun sifətinə vurulan daha bir sillədir. Bu, əslində baykota bərabər bir mövqedir. Əvəzində Avropadan olan siyasətçilər və parlamentarilər “Paris-2024” Yay Olimpiya Oyunlarının rəsmi açılış mərasimini kəskin tənqid atəşinə tutublar. İtaliyanın Baş nazirinin müavini, nəqliyyat və infrastruktur naziri Matteo Salvini “X” sosial şəbəkəsindəki hesabında Paris Olimpiadasının açılış mərasimi ilə bağlı bunları yazıb: “Dünyadakı milyardlarla xristianı təhqir edərək Olimpiadanı açmaq həqiqətən pis başlanğıc idi, əziz fransızlar”.

Baş nazirin müavini bu iradı “Paris-2024”ün açılış mərasimindəki bir hissə ilə bağlı olub. O, bu hissənin Leonardo da Vinçinin “Sonuncu şam yeməyi” freskasında təsvir olunan süjet ilə oxşarlığını qınayıb.

“İtaliya qardaşları” partiyasının üzvü Tommaso Foti “Facebook” sosial şəbəkəsindəki hesabında bunları yazıb: “Olimpiadanın açılışı Parisdə qürubu gözəlləşdirməkdən daha çox, kitç şəkillər və qəbuledilməz çıxışlar fonunda Qərbin qürubunu təqdim etdi. İdmançıların əvəzinə tədbirin mərkəzinə küfr məzmunlu kadrlara nə ehtiyac var idi, məlum deyil. Bilinən odur ki, biz Olimpiadanın bu qədər cəlbedici və həyəcanlı olmayan, küfr dolu vodevilə çevrilmiş açılışını təbii ki, xatırlamırıq”.

Həmin partiyadan olan Nikola Prokaççini isə açılış mərasimi ilə bağlı kinayəli paylaşım edib: “Gey-parad mərasimini çox bəyəndim. Olimpiadanın nə vaxt keçiriləcəyini bilirsiniz?”.

“İtaliya qardaşları” partiyasının üzvlərindən Alfredo Antoniozzi deyib ki, Makronun Fransası Olimpiadanın açılışında ən pisini göstərə bildi: əvvəlcə “Sonuncu şam yeməyi” dreq-kvin kimi təqdim edilməklə dünyadakı milyardlarla xristian ələ salındı, sonra isə dövlət başçıları yağışda islandılar. Partiyanın digər üzvü Lusio Malan sosial media hesabındakı paylaşımında bunu yazıb: “Paris-2024”: Fransa və Avropanı utandıran mərasim”.

“Liqa” partiyasının deputatı Simonetta Matone paylaşımında Paris Olimpiadasında açılış mərasimində yığma komandaların keçidinin ilk olaraq qaçqınlar komandası ilə başlamasını tənqid edərək bunları yazıb: “Qaçqın komandası ilə Olimpiya Oyunlarının açılış mərasimini açan fransızlara “alqışlar”. Əminik ki, onlar İtaliyadan Fransaya getmək istədikləri zaman sərhəddə artıq rədd edilməyəcəklər”.

***Mübariz ABDULLAYEV***

# Xaricdəki Azərbaycan evləri

## Dövlətimizi və xalqımızı sevən hər kəsin üzünə açıqdır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi" istiqaməti üzrə hazırlanmışdır

*Yeganə BAYRAMOVA*

Bu gün Azərbaycan diasporu öz inkişafının ən yüksək mərhələsini yaşayır. Dövlətimizin düşünülmüş diaspor siyasəti nəticəsində xaricdəki həmvətənlərimizin daha mütəşəkkil formada təşkilatlanması prosesi gün keçdikcə yeni mərhələlərə qədəm qoyur. Soydaşlarımız yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayırlar. Belə ki, onlar Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində yüksək fəallıq göstərir, eyni zamanda, təcavüzkar erməni dairələrinin siyasi, ideoloji təxribatlarının qarşısının alınmasında qətiyyət nümayiş etdirirlər.

Diaspor siyasətimizdən danışarkən xarici ölkələrdə, azərbaycanlıların kompakt yaşadığı şəhərlərdə Azərbaycan evlərinin yaradılaraq soydaşlarımızın istifadəsinə verilməsini vurğulamaq yerinə düşər. Qeyd edək ki, bu evlər Azərbaycan dövlətini və xalqını sevən, milli maraqlarımızı üstün tutan hər bir kəsin üzünə açıqdır. Azərbaycan evləri azərbaycanlıların bir dayaq nöqtəsi, görüş, müzakirə məkanıdır. Bu evlər xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması, birliyi istiqamətində ciddi və əhəmiyyətli rola malikdir.

Qeyd edək ki, hazırda 15 ölkədə 29 Azərbaycan Evi fəaliyyət göstərir. Həmçinin evlərin olmadığı ölkələrdə azərbaycanlılar və xaricilər üçün həftəsonu məktəbləri təşkil olunub.

**3 ölkədə Azərbaycan evi açılacaq...**

Bu günlərdə Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) sədri Fuad Muradov bildirib ki, xaricdə növbəti Azərbaycan evlərinin açılması ilə bağlı Diasporla İş üzrə Dövlət Komitəsinə yeddi ölkədən müraciət daxil olub. Onun sözlərinə görə, həmin ölkələrdə Azərbaycan evlərinin açılması üçün həm icmanın, həm də komitənin daxili imkanlarına nəzər yetirilir: "Qeyd edə bilərəm ki, artıq 3 ölkədə Azərbaycan evlərinin açılması ilə bağlı hazırlıq işləri yekunlaşıb".

Komitə sədri cari ilin sonuna qədər açılması planlaşdırılan üç Azərbaycan Evinə dəstək verəcəklərini bildirib: "Yaxın zamanlarda Çexiyada Azərbaycan Evinin açılması ilə bağlı hazırlıq işi davam edir. İraqda da Azərbaycan Evinin açılması ilə bağlı müzakirələr gedir.

Qeyd edim ki, Komitə əsasən diaspor nümayəndələrinin çox olmadığı ölkələrdə Azərbaycan Evlərinin açılmasına üstünlük verir. Məqsədimiz odur ki, Azərbaycan evləri bütün icma üçün açıq olsun".

**Bu evlərin fəaliyyəti qənaətbəxş olmazsa...**

F.Muradov hazırda xaricdə fəaliyyət göstərən 29 Azərbaycan evinin fəaliyyətinin daim diqqət mərkəzində saxlanıldığını qeyd edib: "Komitədə Azərbaycan evləri ilə məşğul olan xüsusi şöbə var. Bəzi ölkələrdəki Azərbaycan evlərinin fəaliyyətində dönüş yaranmasını istərdik. Onlar fərqli istiqamətdə fəaliyyət göstərməlidirlər. Bəzi Azərbaycan evlərinin fəaliyyətinə isə gözləntilərimizdən artıq maraq göstərildi. Müharibə və pandemiya dövründə Komitə olaraq bəzi Azərbaycan evlərinə müəyyən güzəştlər etdik. Ancaq bu ildən başlayaraq Azərbaycan evlərinə xəbərdarlıq etmişik. Bildirmişik ki, onların hansının fəaliyyəti qənaətbəxş olmazsa, təbii ki həmin evlərin saxlanılması məsələsini yenidən nəzərdən keçirməliyik.

Bu evlərin bir funksiyası da ondan ibarətdir ki, yerli ictimaiyyətin tanınmış nümayəndələri oranı ziyarət etsinlər. Əksər evlərdə bu proses yaxşı səviyyədə gedir, lakin bəzilərində bu prosesin daha da təkmilləşməsinə ehtiyac var".

**Gənclər üçün 5-ci yay düşərgəsi keçiriləcək**

Komitə sədri, həmçinin bildirib ki, xaricdə yaşayan gənclərin diaspor təşkilatlarına cəlb edilməsi istiqamətində mütəmadi işlər görülür: "Diasporla İş üzrə Dövlət Komitəsi diaspor təşkilatları ilə müzakirələr aparan zaman onların daha çox gənclərlə bağlı layihələr təqdim etmələri təklifini irəli sürür. Gənclərin diaspor təşkilatına cəlb edilmələri istiqamətində Diaspor Gənclərinin Yay düşərgəsi layihəsini xüsusi vurğulamalıyıq. Bu günədək diaspor gənclərinin Şəki, Şamaxı, Şuşa və Naxçıvan şəhərlərində 4 yay düşərgəsi təşkil olunub. Növbəti - beşinci yay düşərgəsi avqustun 1-7-də Laçında keçiriləcək. Yay düşərgəsi layihəsində iştirak edən gənclər daha sonra diaspor fəallarına çevrilirlər".

**"Qardaşlaşmış Qarabağ məktəbləri"**

F. Muradov Amerikada və Gürcüstanda fəaliyyət göstərən azərbaycanlıların alyansının artıq gənclər qolunun da mövcud olduğunu xatırladaraq bildirib: "Bundan əlavə, gənclərin təhsili ilə bağlı müxtəlif proqramlar həyata keçiririk. Çalışırıq ki, xaricdə təhsil alan tələbələr diaspor işini öyrənməyə maraq göstərsinlər. Bunun üçün Komitə tərəfindən "Diaspor Akademiyası" adlı onlayn kurs təşkil edilib. "Diaspor Akademiyası" bir ildən artıqdır ki, gənclərin iştirakı ilə işini davam etdirir. Eyni zamanda, biz uşaqlarla bağlı da tədbirlər keçiririk. İki ilə yaxındır ki, Komitə tərəfindən Azərbaycan uşaqları üçün "Qardaşlaşmış Qarabağ məktəbləri" layihəsi də reallaşdırılır".

# Nikolas Maduro növbəti dəfə prezident kürsüsündə

Xeyli vaxt idi ki, Venesuelada keçiriləcək növbəti prezident seçkiləri ilə bağlı müzakirələr aparılırdı, Seçkilər iyulun 28-də baş tutub. İlkin nəticələrə əsasən, seçkilərin qalibini müəyyənləşdirmək mümkün olub.

## Seçkilərin favoriti hazırkı prezident Maduro olub

Venesuelada keçirilən budəfəki prezident seçkilərində dövlət başçısı postu uğrunda 10 siyasətçi mübarizə aparıb. Venesuelanın hakim Vahid Sosialist Partiyası hazırkı prezident Nikolas Maduronun namizədliyini irəli sürüb. O, iqtidar partiyası da daxil olmaqla bir sıra siyasi təşkilatlar və hərəkatları əhatə edən "Simon Bolivar adına böyük demokratik qütb" tərəfindən dəstəklənib. Milli Seçki Şurası Maduronu bu birliyin namizədi kimi qeydiyyata alıb. Seçkilərdə iştirak edən siyasətçilərin əksəriyyəti liberal müxalifəti təmsil edib. Maduronun əsas rəqibi "Unitar platform" koalisiyasına daxil olan ifrat sağçı partiyaların namizədi Edmundo Qonzales olub.

Son rəy sorğularının əksəriyyətinə görə, vətəndaşlar Maduroya üstünlük verirdilər. Seçkilərin ilkin nəticələri rəy sorğularında Maduronun öndə getməsinin təsadüfi olmadığını təsdiqləyib. İlkin nəticələrə görə, o, prezident seçkilərində qalib gəlir. Bununla da Maduro üçüncü dəfə altı illik müddətə ölkəyə rəhbərlik edəcək.

Bu barədə səsvermənin nəticələrinə əsasən Venesuela Milli Seçki Şurasının (MSŞ) sədri Elvis Amoroso məlumat verib. Seçki komissiyasından yayımı bütün Venesuela televiziya kanalları aparıb.

Amoroso MSŞ-nin ilk bülletenini açıqlayıb. Bülletenə əsasən, səslərin 80 faizi hesablandıqdan sonra Maduronu 5 150 092 seçici və ya səs verənlərin 51,2 faizi dəstəkləyib. Maduronun əsas rəqibi, ifrat sağçı partiyalardan olan namizəd Edmundo Qonsalesa 4 445 978 seçici və ya səs verənlərin 44,2 faizi səs verib. Seçkilərdə iştirak edən digər səkkiz namizəd, ümumilikdə, seçicilərin 4,6 faizinin səsini toplayıb.

Venesuela Prezidenti Nikolas Maduronun özü bildirib ki, onlar dünyanın ən güclü seçki sisteminə malikdirlər. O, bu barədə ölkədə keçirilən prezident seçkilərini izləyən beynəlxalq müşahidəçilərlə görüşü zamanı deyib.

Dünyanın ən güclü seçki sisteminin Venesuelada olduğunu iddia edən Maduro, nəticələrin qalibi müəyyən edəcəyini bildirib və xalqın seçiminə hörmət edilməsini istəyib.

Venesuela mətbuatında yer alan xəbərlərə görə, seçkiləri izləmək üçün Venesuelaya 900-dən çox beynəlxalq müşahidəçi gəlib.



## Yeni hakimiyyətin əsas vəzifəsi

Qlobal enerji üzrə statistik icmala əsasən, Venesuela təbii qaz ehtiyatlarına görə dünyada səkkizinci, Latın Amerikasında birinci, ötən il isə onun istehsalına görə dünyada 25-ci yerdə qərarlaşıb. "Gas Energy Latin America" konsaltinq şirkətinin məlumatına görə, bu il bu Cənubi Amerika ölkəsində hasilat gündəlik 2,2 milyarddan (2016-cı il) 1,2 milyard kub metrə düşüb.

İstehsalın dirçəldilməsi qonşu ölkələrdə yaranan çatışmazlığı yumşalda və həmçinin Venesuelaya çox lazım olan sabit valyutada gəlirlər gətirə bilər. Hazırda ölkədə qaz əsas problem olaraq qalır. Kimin qalib gələcəyindən asılı olmayaraq, yeni hakimiyyət OPEC üzvü olan ölkənin qaz sənayesinə investisiyaların təmin edilməsi kimi çətin vəzifə ilə qarşılaşacaq.

Venesuela Prezidenti Nikolas Maduronun administrasiyası ötən ildən xarici şirkətlərə qaz layihələri ilə bağlı təklifləri aktivləşdirib. Lakin bir çox şirkətə uzun müddətdir ödənilməmiş borclar, ABŞ sanksiyaları və tələb olunan böyük investisiyalar irəliləyişi məhdudlaşdırır.

Ölkənin 150 milyard dollarlıq borcunun restrukturizasiyası, eyni zamanda, özəl sektorun rolunu köklü şəkildə genişləndirməklə bağlı təkliflər səsləndirilib ki, bu da analitiklərin fikrincə illər çəkəcək. Venesuelanın problemləri inkişafa mane olur.

Kolumbiya, Braziliya, Trinidad və Tobaqo kimi qonşu dövlətlər və bir çox Avropa ölkəsi Venesuelada hasilatın artırılması ilə qaz qıtlığının aradan qalxacağına ümid edir. Onlar qaz layihələrini sanksiyalardan azad etmək üçün ABŞ Prezidenti Cozef Baydenin administrasiyasına müraciət ediblər.

Venesuelanın təqribən 200 milyard kub metr kəşf edilmiş qaz ehtiyatı hələ də istifadə olunmamış qalır. "Venesuelada təbii qaz hasilatı tarixən onun potensialına nisbətən məhdud olub", - deyə ABŞ Enerji İnformasiya İdarəsinin (EİI) hesabatında deyilir. Bu vəziyyət pis investisiya mühiti və infrastrukturun yoxluğu ilə əlaqələndirilir. Venesuelada qaz hasilatının təxminən 80 faizi neft hasilatına bağlıdır.

## Argentina, Peru və Çili Maduronun qələbəsini tanımır

Argentina, Peru və Çili Venesuelada keçirilən prezident seçkilərində Nikolas Maduronun qələbəsini tanımaqdan imtina edib.

Argentina prezidenti Xavyer Miley venesuelalı müxalifətçi Edmundo Qonzalesi qalib elan edib. Perunun xarici işlər naziri Xavyer Qonzales-Olaeçea Venesuelada keçirilən səsverməni "xalqın iradəsinə hücum" adlandırıb.

Çili xarici işlər naziri Alberto van Klaveren bildirib ki, beynəlxalq müşahidəçilər öz nəticələrini səsləndirməyənə qədər Çili hökuməti Nikolas Maduronun qələbəsini tanımayacaq. Çili prezidenti Qabriel Boric də "protokolların yoxlanılmasında tam şəffaflığa" çağırıb.

*MÜBARİZ*

# Sığorta yığımları və könüllü sığorta artsa da...

## Xidmətin keyfiyyəti və əlçatanlıq dəyişməyib

2024-cü ilin yanvar-iyun aylarında Azərbaycandakı 17 sığorta şirkəti tərəfindən sığorta daxilolmalarının həcmi 725 milyon manatı ötüb. Bu, ötən ilin eyni dövrünə nisbətən 11,7 faiz çoxdur. Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 356 milyon manat təşkil edib. Belə ki, şirkətlərin müştərilərə ödədiyi sığorta ödənişlərini çıxdıqdan sonra onların xalis aktivində 370 milyon manata yaxın vəsait qalıb. Yəni şirkətlər yığdığı pulun hər 1 manatının 49 qəpiyini xərcləyir, 51 qəpiyini özündə saxlayır. Bu isə olduqca böyük həcmdə mənfəət deməkdir.

Sığorta bazarının böyüməsində son illərdə müvafiq qanunvericiliyə edilmiş dəyişikliklər də mühüm rol oynayıb. Xüsusilə də aqrar sığorta və daşınmaz əmlak sığortası ilə bağlı yeniliklərdən sonra sığorta şirkətləri bu istiqamətdə də yığım paketlərini aktivləşdirib.

Sığorta yığımlarında könüllü ödəmələrin həcmi daha böyük olub və ilk dəfə olaraq 541 milyon manatı üstələyib. Bu, ümumi sığorta portfelinin 70 faizi deməkdir. Son illərdə könüllü həyat, fərdi qəza və xəstəlik sığortası üzrə yığımlar və ödənişlərdə daha çox artım müşahidə edilir. Avtomobil, daşınmaz əmlak üzrə, işçilərin peşə fəaliyyəti ilə bağlı olan icbari sığortada olan yığımlarda artımlar olsa da, könüllü sığorta yığımlarından geri qalır. Bu da onu təsdiqləyir ki, adından da göründüyü kimi insanlar məcburi və ya inzibati üsullara yox, azad seçimə, könüllülüyə daha çox üstünlük verirlər. Onlar könüllü olaraq, həyatlarını, sağlamlıqlarını, daşınar və daşınmaz əmlakını, yaxud digər mal və xidmətləri sığortalamaq üçün seçimlər əsasında qərar verirlər.

Ümumilikdə, sığorta üzrə rəqəmlər onu göstərir ki, Azərbaycanda sığorta bazarı son illərdə əhəmiyyətli dərəcədə böyüyüb, sığorta sektorunun toplam illik gəlirləri 1 milyard manatı ötüb. Ancaq buna baxmayaraq, sığorta şirkətlərinin təqdim etdiyi xidmət çeşidlərində ciddi dönüş müşayiət olunmur, müştərilərə xidmətin keyfiyyəti daha da aşağı düşür, yeni xidmət alətləri tətbiq olunmur. Bir çox hallarda vətəndaşlara dəymiş zərər zamanı (sığorta hadisəsi) sığorta haqqı ödənilmir. Xüsusilə də belə hallar nəqliyyat sektorunda nəzərə çarpır. İlk yarımillikdə sığorta portfelində avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə yığımlar və ödənişlərdə əhəmiyyətli artım baş verib. Bu növ sığorta üzrə yığımlar 79 milyon 641 min manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,7 milyon manat çox vəsait deməkdir.

Sığorta sektorunun böyüməsi və yığım kanallarının genişlənməsinə baxmayaraq, xidmət çeşidləri, operativlik və əlçatanlıq, müştəri məmnuniyyəti, sığorta mədəniyyəti hələ də lazımi səviyyədə deyil. Bunun da əsas səbəblərindən biri əhalinin sığorta hadisəsi baş verdiyi zaman, şirkət tərəfindən ödənişlə bağlı məsuliyyətsizlik və intizamsızlıq halları, hadisənin təsdiq olunması və aktlaşdırılması üçün gərəksiz əlavə sənədlərin tələb olunmasıdır. Ələlxüsus da sığorat şirkəti tərəfindən sənədlərin yığılaraq gec təqdim olunması və sığorta hadisəsinə maddi təminat verilməsində yubanmalar xidmətin keyfiyyətinin aşağı səviyyədə olmasına dəlalət edir. Nəticədə müştərilərin sığorta şirkətlərinə inamsızlığı yaranır.

Hazırda sığorta sektorunda ən çox müşahidə edilən nöqsanlar mənzil və daşınmaz Sığorta sektorunda şikayət və narazılıqların ən böyük hissəsi, təxminən ümumi şikayətlərin 50 faizindən çoxu avtomobillərin sığortası ilə bağlıdır. Narazılıqlar avtomobillərin sığortası zamanı rüsumların böyüklüyü və sığorta şirkətlərinin sığortadan imtinası ilə bağlıdır. 2022-ci ildən tətbiq olunan "Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta haqqı məbləğlərinin hesablanması Qaydası"na əsasən, avtomobillər üçün müəyyən edilmiş sığorta rüsumu əvvəlkindən fərqli əmsallar üzrə hesablanmaqdadır. Həmçinin, yeni qaydaların qüvvəyə minməsindən sonra sığorta şirkətlərinin bəzisi sui-istifadə edərək avtomobilləri sığorta etməkdən imtina edir. Sığorta şirkətləri bunu kiçik mühərrikli nəqliyyat vasitələrinin əksəriyyətinin istismara yararsız olması ilə əsaslandırır. Başqa arqument həmin markalı avtomobillərin daha çox taksi fəaliyyəti üçün icarəyə verilməsidir. "Toyota Prius", "Kio Rio", "Ravon", Xəzər" və s. markalı nəqliyyat vasitələri onlar üçün risk qrupuna aid edilir. Bu isə şirkət tərəfindən "Sığorta fəaliyyəti haqqında" Qanunun 3.4-cü maddəsinin, eləcə də Mülki Məcəllənin 907.2-ci maddəsinin pozulması deməkdir.




Bundan başqa, dəymiş zərərə görə, kompensasiyanın, sığorta haqqının verilməsində ləngimələr, süni özbaşınalıqlar da xarakterik nöqsanlardandır.

Bütün bunlar sığorta şirkətlərinin yığımla yanaşı, müştəri məmnunluğuna xüsusi diqqət ayırmasını zəruri edir. "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası"nda əsas prioritetlərdən biri kimi sığorta sektorunun dayanıqlığının gücləndirilməsi nəzərdə tutulub. Ona görə də, müvafiq qurumlar sığortanın əsas fəlsəfəsi olan sığorta hadisəsinə adekvat və çevik, tamhəcmdə xidmətin təşkilinə nəzarəti artırmalıdır.

*ELBRUS CƏFƏRLİ*

# Yaxın Şərqdə yeni gərginlik...

## Livan-İsrail müharibəsi ehtimalı güclənir

Xəbər verildiyi kimi, iyulun 27-si axşam saatlarında Livandan İsrailin şimalı raket atəşinə tutulub. Raketlərdən biri həmin vaxt uşaqların olduğu Məcdəl Şəmsdəki (Colan yüksəkliyi) futbol meydançasında partlayıb. Nəticədə 15 nəfər həlak olub, bir neçə adam yaralanıb. İsrail hökuməti baş verən hücumda "Hizbullah" hərəkatını günahlandıraraq, bu aktı sərt şəkildə cavablandırıb. Düzdür, "Hizbullah" hücumda iştirakını inkar etsə də, ilkin rəy atılan raketlərin məhz təşkilat tərəfindən yönləndirildiyi şəklindədir. Hücumdan dərhal sonra İsrail Xarici İşlər Nazirliyi məlumat yayıb və Colandakı insidentin bütün qırmızı xətləri keçdiyini vurğulayıb. ABŞ-da səfərdə olan İsrailin Baş naziri Netanyahu İsrailə qayıdıb.

### Bir il fasilə ilə eyni koordinatlı hücum...

Livan hökuməti baş verənlərlə bağlılığının olmadığını bəyan edib. Hökumət mülki əhaliyə qarşı hücumları qətiyyətlə pisləyib və bölgədəki bütün cəbhələrdə hərbi əməliyyatların dayandırılmasını tələb edib. Bu barədə respublikanın Baş naziri Nəcib Mikatinin Mətbuat xidmətinin teleqram kanalında yaydığı bəyanatda deyilib. "Hökumət bütün zorakılıq aktlarını və mülki şəxslərə edilən hər hansı hücumu qətiyyətlə pislədiyini bəyan edir", - deyə bəyanatda bildirilib. Baş nazir qeyd edib ki, Beyrut mülki əhaliyə qarşı təcavüzü insanlıq prinsiplərinə zidd olan beynəlxalq hüququn açıq şəkildə pozulması kimi qiymətləndirir.

Hökumət hücumla bağlılığını təkzib etsə də, baş verənlər yeni müharibənin anonsu kimi dəyərləndirilir. Xatırladaq ki, İsrail ilə Livan arasında illərdir mərhələli şəkildə davam edən qarşıdurmanın son "pərdəsi" ötən ilin aprelində qapanmışdı. Həmin vaxt İsrailin şimal əraziləri Livandan atılan raketlərlə atəşə məruz qalmışdı - Livan tərəfindən atılan yaxınmənzilli raketlərdən biri yanacaqdoldurma məntəqəsinə düşmüşdü. Atılan raketlərin əksəriyyəti "Dəmir günbəz" raketdən müdafiə sistemi tərəfindən məhv edilmişdi. Həmin vaxt da atılan raketlərin məsuliyyətini Livan hökuməti üzərinə götürməsə də, hücumun Livan "Hizbullah" hərəkatı tərəfindən törədildiyi aşkara çıxmışdı. Həmin hücumlar Məbəd dağında baş verən toqquşmalardan sonra "Hizbullah"ın fələstinlilərin İsrailə qarşı görə biləcəyi "hər bir tədbiri" dəstəkləyəcəyini bildirdikdən bir neçə saat sonra atılmışdı. Ondan öncə isə Livan 2021-ci ilin avqustundan İsraili intensiv raket atəşinə tutmuşdu.

Vurğulandığı kimi, İsrail ilə Livan arasında siyasi-hərbi gərginliklər artıq uzun illərdir davam edir. Hətta 1975-1990-cı illər aralığında Livanda baş vermiş vətəndaş müharibəsi belə son hədəf olaraq İsrailə qarşı istiqamətlənmişdi. 1990-cı il proseslərinin ardından 1991-ci ilin martında Livan Parlamentinin çıxardığı əfv qanunu ilə bütün siyasi günahkarlar sərbəst qalmışdı. 1991-ci il may ayında isə əksəriyyəti "Hizbullah" xadimlərindən ibarət olan silahlı qüvvələrlə Livan Ordusu təkrar yaradılmışdı.

2006-cı ilin iyulun 12-dən avqustun 14-nə kimi davam edən İkinci Livan müharibəsi də "Hizbullah"ın hərbi qanadı ilə İsrail Silahlı Qüvvələri arasında Livan torpaqları və İsrailin şimalında davam etmiş olan silahlı qarşıdurma kimi tarixə düşmüşdü. Böhran Livanda yerləşmiş Hizbullah təşkilatının 12 iyul 2006-cı il tarixində iki İsrail əsgərini qaçırması və səkkizini öldürməsiylə başlamışdı. Əsgərlərin qaçırılmasına əlavə olaraq Cənubi Livandakı "Hizbullah" xadimlərinin İsrail torpaqlarına "Katyuşa" mərmiləri göndərməsi isə İsrail tərəfindən Livanın döyüş hərəkəti ( "act of war") kimi şərh edilmişdi. Bunun üzərinə İsrail Livana hava və quru hücumları etmiş və ölkənin limanlarını dənizdən mühasirəyə almışdır. İsrailin bu davra-



nışına qarşılıq olaraq "Hizbullah" Cənubi Livandan İsrailin şimalına etdiyi mərmi hücumlarını şiddətləndirmişdi. Bir aydan çox davam edən qarşıdurmaların ardınca Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qəbul etdiyi 1701 saylı qərara uyğun olaraq 14 avqustda tərəflər hücumlarını dayandırmışdı.

Ötən hücumlar açıq müharibəyə səbəb olmasa da, bu dəfəki hücumun miqyasının genişlənməsi ehtimalı günü-gündən artır. İsrailin xarici işlər naziri İsrael Kats bildirib ki, ölkəsi "Hizbullah" və Livanla genişmiqyaslı müharibənin bir addımlığındadır. O, ölkə mediasına verdiyi müsahibədə qeyd edib ki, Məcdəl-Şəmsin atəşə tutulmasından sonra İsrail Livanda "Hizbullah"a qarşı müharibəyə başlaya bilər. "Məcdəl-Şəmsin atəşə tutulması, mülki şəxslərin, uşaqların öldürülməsi artıq səbr kasamızı daşdırdı. Ölkəmiz buna cavabı ağır olacaq. Biz "Hizbullah" və Livanla genişmiqyaslı müharibə anına yaxınlaşırıq", - deyə o bildirib.

Bəyanatdan həmən sonra İsrail Colan təpələrinin atəşə tutulmasına cavab olaraq Livana raket zərbələri endirib. İsrail Hərbi Hava Qüvvələri Livanın cənubundakı "Hizbullah" təşkilatının hədəflərinə bir sı-

### İsrail hava zərbələri endirdi

ra hücumlar həyata keçirib. Bu barədə görüntülər sosial şəbəkəyə yerləşdirilib. İsrail aviasiyası Əl-Hayam və Kfar-Kila şəhərlərinə, eləcə də Tir dairəsindəki Abbasiyyə və Burj əl-Şimali şəhərlərinin kənarlarına hava zərbələri endirib.

Səslənən bəyanat həm də Yaxın Orta Şərqdəki gərginliyin sərhədlərinin daha da genişlənə biləcəyindən xəbər verir. Artıq aylardır kiçik fasilələrlə davam edən Fələstin-İsrail qarşıdurması - Qəzza probleminin həlli məsələsi beynəlxalq gündəmin əsas mövzusu olduğu bir zamanda, "Hizbullah"ın, dolayısı ilə Livanın belə bir addım atması region üçün müsbət perspektiv vəd etmir. Xüsusilə, ABŞ-da baş tutacaq seçkiləröncəsi İsrailə qarşı hücum Livan üçün intihar da sayıla bilər - Ağ Evin həm hazırki adminstrasiyasının, həm də yeni namizəd Trampın komandasının özünün reytinqini daha da qaldırmaq üçün bu məsələdə birmənalı mövqe tutacacağı bəllidir. Eyni zamanda, İsrailin son günlərdə bir sıra ərəb dövlətləri ilə görüşlər keçirməsi və ərəb dövlətləri ilə münasibətlərdə yeni səhifə açmağa hazırlaşmasını bəyan etməsi Livanı müharibə meydanında tək qoya bilər. Düzdür, bəzi ölkələr (məsələn, İran) hücumla bağlı bəyanatında fərqli mövqe səsləndirsələr də, onların münaqişəyə aktiv müdaxiləsi indiki zamanda real görünmür.

Türkiyə isə Fələstinə və Qəzzaya hərbi-texniki yardım edəcəyini istisna etməyib. Prezident Rəcəb Tayyib Ərdoğan AKP-nin Rizə təşkilatının tədbirində çıxışı zamanı

### ABŞ-dan tam dəstək...

bunun anonsunu səsləndirib. O, İsrailə xəbərdarıq edib.

Bunun əksinə, ABŞ İsrailə bu münaqişədə tam dəstək nümayiş etdirir - İsrailin Baş naziri Benyamin Netanyahu Livanda Hizbullah və müttəfiqlərinə qarşı genişmiqyaslı əməliyyat üçün ABŞ-dən tam razılıq alıb. İsrail mediasının yaydığı məlumata görə, Livanda "Hizbullah"a qarşı əməliyyatlara ABŞ açıq dəstək göstərə bilər.

Beləliklə, Yaxın Orta Şərq gərginliyi yenidən artan xəttlə inkişaf etməyə başlayıb. Dünyanın bir sıra nöqtələrində kataklizmlərin, qarşıdurmaların vüsət aldığı bir zamanda İsrail ilə Livan arasında müharibənin genişlənməsi həm də bəzi qarşı qütblər üçün yeni müharibə meydanı demək olacaq...

**P.İSMAYILOV**

# "Borrelin idarəsi" qənaət rejiminə keçir...

Avropa İttifaqı Şurası ittifaqa daxil olan yeddi üzv ölkədə həddindən artıq böyük büdcə kəsirinin mövcud olduğunu müəyyən edib və rəsmi araşdırmalara başlayıb. Büdcə kəsiri ağırlaşmış ölkələr arasında Belçika, Fransa, İtaliya, Macarıstan, Malta, Polşa və Slovakiya yer alır. Həmin ölkələrdə büdcə kəsiri ÜDM-in 4 faizini ötüb ki, bu da Aİ-nin büdcə-fiskal qaydalarına ziddir. Belə ki, təşkilatın vahid büdcə siyasətinə əsasən, üzv ölkələrdə maksimal büdcə kəsiri həddi ÜDM-in 3 faizini ötə bilməz. Belçika 4,4 faiz, Polşa 5,1 faiz, Fransa 5,5 faiz büdcə kəsiri olmaqla fiskal çətinliklərlə üzləşib.

Mövcud vəziyyət Aİ ölkələrinin yerli gəlirlərinin azaldığına və maliyyə xərclərini ödəməkdə çətinliklərin meydana çıxdığına işarə edir, nəticədə ölkələr xərcləri qarşılamaq üçün büdcə kəsirini artırırlar. Artıq həmin ölkələrin, eləcə də digər Avrozona dövlətlərinin fiskal qənaətə keçməsinə səbəb olub, yerli büdcələrdə əsaslı xərclərlə yanaşı, cari xərclərin bir qismininin təxirə salınması, yaxud azaldılmasına qərar verilib.

Qeyd edək ki, Avrozona iqtisadiyyatı 2024-cü ilin birinci yarısında cəmi 0,4 faiz artım nümayiş etdirib ki, bu da pandemiyadan sonrakı illərdə ən aşağı göstəricidir. Xüsusilə də Avrozonada iqtisadiyyatın əsas sütunu olan sənaye sektorunda istehsal həcmində əhəmiyyətli enişlər qeydə alınıb. Mart-may aylarında bu regionda illik ifadədə sənaye istehsalı 1,1 faiz azalıb. Eyni zamanda, uzunmüddətli istifadə üçün nəzərdə tutulmuş məhsulların istehsalı aylıq ifadədə Avrozonada 1,2 faiz, Aİ-də isə 1,3 faiz aşağı düşüb. Həmçinin qısamüddətli istifadə üçün nəzərdə tutulmuş istehlak məhsulların Avrozonada və Aİ-də istehsal həcmi 2,8 faiz azalıb.

İqtisadi daralmanın ilin sonuna qədər və növbəti ildə də davam edəcəyi gözlənilir. Avropa İttifaqı Komissiyasının "Avropa İqtisadi Proqnozları 2024" hesabatına əsasən, Avrozona iqtisadiyyatının 2024-cu ildə 0,4 faiz, 2025-ci ildə isə 0,8 faiz artacağı gözlənilir. Hesabata əsasən, Aİ-də inflyasiyanın 2,5 faiz, Avrozonada isə 2,2 faiz olacağı proqnozlaşdırılır. Aİ-də işsizlik səviyyəsi isə 6 faiz civarında gözlənilir.

Avropa İttifaqının iqtisadiyyatında baş verənlər onu göstərir ki, bu bölgə hələ də tam iqtisadi aktivlik fazasına daxil ola bilməyib və qlobal mürəkkəb proseslər fonunda iqtisadi göstəricilərin pisləşməsi gözləniləndir. Gözlənənən texniki tənəzzülün qaynağı iqtisadi amiillərlə yanaşı, geosiyasi proseslərlə də əlaqələndirilir. Belə ki, 2024-cü ildə ABŞ-da keçiriləcək prezident seçkiləri ərəfəsində siyasi gərginliyin artması, Rusiya və Ukraynada müharibə və digər faktorlar avrozona iqtisadiyyatı üçün riskin siyasi mənbəyini təşkil edir. Xüsusilə də Rusiya-Ukrayna müharibəsi ilə bağlı qlobal iqtisadi zəncirin pozulması, nəqliyyat-enerji-logistika təchizatlarındakı qırılmalar iqtisadi dayanıqlılığı ləngidir. Bundan başqa, Aİ zonasında alıcılıq qabiliyyətinin zəifləməsi və yüksək faiz dərəcələri fonunda kreditlərin azalması, eləcə də investisiya təşviqinin zəifləməsi səbəbindən Avrozonada iqtisadi artım gözləntiləri də azalır.

BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) oktyabrın 4-də dərc olunmuş illik Ticarət və İnkişaf Hesabatında da sərt pul siyasəti fonunda Avropapa tənəzzül meyillərinin əlamətlərinin olmasına işarə edilib.

Ona görə də, Avrozonada iqtisadi inkişafla bağlı aşağı artım bir çox ölkələri büdcə gəlirlərinin azalması fonunda xərcləri qarşılamaq üçün büdcə kəsirini və borcu artırmağa vadar edir. Ancaq fiskal təhdidlərə baxmayaraq, Avropa müdafiə sənayesini gücləndirmək üçün xərcləri artırmaq niyyətindədir. Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozef Borrel bildirib ki, ittifaq ölkələri müdafiə sənayesi və texnoloji bazasını gücləndirməyi planlaşdırır.

Bu ssenariyə əsasən, növbəti on il ərzində hərbi sənayeyə əlavə 500 milyard avro sərmayə qoymağa hazırlaşır. Qeyd edək ki, 2022-ci ildə bütün Avropa İttifaqı ölkələrinin ümumi hərbi xərcləri 240 milyard avro, 2023-cü ildə 250 milyard avro, hərbi sənaye kompleksinə qoyulan investisiyalar isə Aİ-nin müxtəlif ölkələrində bu məbləğin 5-15 faizini təşkil edib.

Aİ-nin maliyyə siyasətində hərbi xərclərə üstünlük verməsi və büdcə portfelinin əsaslı və cari xərclərinin bir çox bəndlərinin yerinə yetirilməsində problemlərə rəğmən, bu istiqamətdə səyləri artırması niyyətləri də anlaşılan deyil. Çünki, Aİ-nin büdcə imkanlarının azaldığından NATO-nın müdafiə xərclərinin təminatında son aylarda ciddi çətinliklər müşayiət edilməkdədir. Avropa dövlətləri cari ilin əvvələrində Alyansın 2024-cü il hərbi büdcə xərclərinin 56 milyard avro artırılmasına dair razılıq əldə etsələr də, 5 aydan çoxdur ki, maliyyə təminatında axsamalalr var, NATO-nun büdcə öhdəliyi kəsirlə icra olunur və ilin sonunda maliyyə öhdəliklərinin tam bağlanacağı da şübhə doğurur. Almaniya İqtisadi Tədqiqatlar İnstitutunun apardığı araşdırmaya əsasən, NATO-nun büdcə-xərc smetası Avrozonanın ÜDM-nin 2 faizinə bərabər olsa iqtisadi aktivlikdəki azalmalardan meydana çıxan axsamalar müdafiə xərcləri üzrə hədəfləri tamamlamağa imkan vermir.




Gözlənilən büdcə təlatümlərini arxa plana keçirən Aİ müdafiə sənayesini irəli atmaqla qarşıdakı aylarda sərt maliyyə-büdcə siyasəti yürüdərək sosial, investisiya, əsaslı xərcləri yenə də azaltmağa və büdcə kəsirlərini artırmağa məcbur olacaq. Bu isə ümumilikdə, bu regionun maliyyə dayanıqlığını çətinləşdirə, xüsusilə də büdcədə fiskal təzyiqi artıra bilər.

Bütün bunlara baxmayaraq, Aİ öz siyasətində geosiyasi-hərbi maraqlarını təmin etmək üçün büdcə "qayçılamalar"ından sıxdığı vəsaitləri müxtəlif münaqişə bölgələrinə ünvanlayır, eləcə də bir sıra ölkələrə yardım və ianələrini dayandırmır. Avropa ölkələrinin əsas problemlərin və sosial siyasət üzrə xərc smetalarında kəsirlərin yüksəlməsindən narahat olmayan Aİ-nin Ermənistana 10 milyon dollar yardım paketi ayırması da təəccüb doğurmaya bilməz.

**ELBRUS**

# Avropaya sülh gəlir?

## Ukrayna Çinin təkliflərini dəstəklədi

Rusiya-Ukrayna müharibəsi ətrafında illərdir formalaşan siyasi duman get-gedə çəkilməkdədir. Situasiya yeniləndikcə siyasi ambisiyalar özünün köhnə görüntüsünü itirir. Başqa sözlə, dünənə qədər kollektiv Qərbin "gücünə" arxayın olan, maddi-hərbi dəstəyin sonsuzluğa qədər davam edəcəyi kimi fikrə düşən Ukrayna prosesi artıq soyyuqqanlı təhlil etməyə başlayıb. Ümumi gedişatın onun əleyhinə yönəldiyini və kilid nöqtədə meydanda tək qalma ehtimalını göz önünə alan Kiyevin sülh anonsu səsləndirməsi bunun əsas səbəblərindəndir. Belə ki, Ukrayna Prezidenti Volodimir Zelenski Yaponiyanın NHK telekanalına müsahibəsində söyləyib ki, noyabrın sonuna qədər rəsmi Kiyev sülhə nail olmaq üçün fəaliyyət planı hazırlayacaq. Onun sözlərinə görə, Kiyev ərazi bütövlüyü məsələlərində müvafiq ölkələrlə ətraflı müzakirələrə başlayacaq. "Rusiyanın Ukrayna ərazilərini işğal altında saxladığı bir vaxtda atəşkəs çağırışlarına cavab verə bilməyəcəyik", - deyə Zelenski vurğulayıb.

Göründüyü kimi, artıq "sülh, yoxsa müharibə" tezisi üzrə aqressiyasını bir kənara qoyan Ukrayna prosesləri dəqiq qiymətləndirməyə başlayıb. Dəstəkçi qismdə çıxış edən iki gücün - Avropa İttifaqı və ABŞ-ın hazırkı daxili vəziyyəti Ukraynaya xoş gələcək vəd etmir. O baxımdan ki...

### Ukrayna "vəziyyəti" dəyərləndirir...

İlkin olaraq Aİ-nin məsələ ilə bağlı gələcək proqnozlar üzərindən hərəkət trayektoriyasını müəyyənləşdirməyə çalışsaq, göz önündə təxminən belə bir mənzərə canlanır:

- Trampın hakimiyyətə mümkün gəlişi ehtimalı üzərindən ABŞ-ın Ukrayna müharibəsinə münasibətinin dəyişməsi;
- Eynilə NATO-nun formatının dəyişmə ehtimalının önə çıxması;
- BRİKS-in açıq fərq ortaya qoyması;
- Aparıcı güclərin, hazırki situasiyada əsas iqtisadi rıçaq rolunda çıxış edən dövlətlərin birmənalı sülh çağırışlarının səslənməsi
-Nəhayət, güc balansının açıq şəkildə Ukraynanın əleyhinə çevrilməsi.

Bu şərtlər özlüyündə Kiyev üçün fərqli bir çıxış yolu qoymur. Hətta Aİ daxilində Ukraynaya yardım məsələsi ilə bağlı ortaya çıxan müəmmalar, qeyri-monolit durum özü narahatdlıqların əsas səbəblərindəndir - istisna edilmir ki, yaxın gələcəkdə Aİ-nin bir sıra ölkələrində qalib gəlmiş sağ mərkəzçi - milliyyətçi qüvvələr Ukrayna məsələsinə baxışda fərqli mövqe nümayiş etdirsin. Və ya ölkəsinin milli maraqlarını düşünən ölkələrin sayının artması ehtimalı ortaya çıxır ki, bu da gələcəkdə Macarıstanın mövqeyinin daha qətiyyətli şəkildə dəstəklənməsinə yol aça bilər. Beləliklə, Qərbin məsələyə baxışında yenilənmənin olması birmənalıdır. Ukrayna isə səslənən bəzi ən neqativ ssenarilərdən qaçmaq üçün çıxış yolunu sülh platforması yaratmaqda görür.

Zelenskinin "Kiyev ərazi bütövlüyü məsələlərində müvafiq ölkələrlə ətraflı müzakirələrə başlayacaq" fikri əslində son ümiddir - o mənadakı, sülhlə bağlı bütün çağırışlarda hazırki situasiya qeyd-şərtsiz danışıqlar müstəvisi kimi irəli sürülür. Yəni istər Rusiya, istərsə də sülh çağırışı edən tərəflər Ukraynanın bu "şərtini" nəinki qəbul etmirlər, heç müzakirə predmetinə çevirmirlər. Məhz bu səbəbdəndir ki, Zelenski məsələnin geniş auditoriyada müzakirəsinə nail olmaq istəyir. Amma bu da "daldan atılan daşa" bənzəyir. Aylar öncə Ukraynada sülh platforması yaratmaq üzrə müzakirələr təşkil edən Qərbin heç nəyə nail olmadığı artıq bütün kriteriyalar üzrə üzə çıxır. Demək ki, Ukrayna özü də Qərbdən heç nə hasil edilməyəcəyini anlayıb - xarici işlər naziri Kulebanın Pekin səfərinin əsl mahiyyətində gizlənən şifrə də məhz budur.

O ki qaldı, ABŞ-a, Vaşinqton artıq

### İlk xeyir-duanı Tramp verdi...

öz mövqeyini açıq şəkildə bəyan edib. Prezidentliyə namizəd Donald Trampın və vitse-prezident kimi görmək istədiyi Ceyms Vensin Ukrayna məsələsinə hazırki iqtidardan fərqli yanaşma sərgiləyəcəyi sirr deyil. Ən azından, ayrılacaq "maddi yardımların" səviyyəsi və miqdarı əvəlki kimi olmayacaq. Beləliklə də, Ukrayna indidən özünün "hesabını" tutmalıdır ki, sonra və sonda peşman olmasın. Bu mənada, Zelenskinin sülh üçün təyin etdiyi vaxtın ABŞ-dakı prezident seçkiləri ilə üst-üstə düşməsi təsadüfi deyil...

Nəhayət əsas nüansı unutmaq olmaz: ABŞ prezidentliyinə namizəd Donald Tramp Ukrayna Prezidenti Volodimir Zelenski ilə telefon danışığı aparıb - Ukrayna mediasının məlumatına görə, Trampın Zelenskiyə Rusiya-Ukrayna müharibəsi ilə bağlı söz verib: "Donald Tramp yenidən prezident seçiləcəyi təqdirdə Ukraynadakı münaqişəyə son qoyacağına söz verib. Zelenski isə onunla görüşmək istədiyini bildirib".

Beləliklə, sülhün "ilk xeyir-duası" Ukraynanın ən yaxın müttəfiqi tərəfindən verilib.

Bəli, həqiqət budur ki, Ukrayna-Rusiya qarşıdurmasında güc balansı nəticəni həll edən əsas meyar kimi ortaya çıxır. Sülhün reallaşmasının əsas dayaq nöqtəsi isə Çin amilidir. Pekin bir müddət öncə xüsusi sülh təklifi paketi ilə çıxış etmişdi - orada, həm Ukraynanın, həm də Rusi-



yanın iştirakçısı olacağı beynəlxalq sülh konfransının keçirilməsi təklifi belə irəli sürülmüşdü - Zelenskinin hazırki sülh platforması təklifi Çinin ortaya qoyduğu iradənin təkrarıdır. Bu müzakirə özündən əvvəlkindən fərqlənəcək və birtərəfli olmayacaq - tam əksinə, hər iki tərəfin öz arqumentlərini dialoq vasitəsilə ortaya qoymaq imkanı yaranacaq. İsveçrədə baş tutan və uğursuzluğa düçar olan "sülh konfransı" bu təklifin birtərəfli və zəif "yamsılanması" idi.

Çinin səsləndirdiyi "sülh yolu" bütün tərəflər üçün bərabər imkanlar yaradır - Rusiyanın məsələdəki mövqeyi də bu təklifi dəstəkləyir. Məsələn, Kremlin bu təklifə münasibəti olduqca istidir - O, Çinin Ukrayna ilə bağlı təklif etdiyi planın üstünlüklərini təhlil edir və dəyərləndirir. Təsadüfi deyildi ki, Çinin bu təklifi Moskva tərəfindən rəğbətlə qarşılanmışdı və XİN başçısı səviyyəsində bunun mümkünlüyü ortaya qoyulmuşdu.

Ukraynanın xarici işlər naziri Kulebanın Pekinə edilən səfəri sülhün uzaqda olmadığını deməyə əsas verir. Xatırladaq ki, iyulun 23-də reallaşan səfər çərçivəsində Dmitri Kuleba Çin Xalq Respublikasının xarici əlaqələr departamentinin rəhbəri Vanq Yi ilə Rusiya ilə müharibədə "ədalətli sülhə" nail olmaq yollarına dair danışıqlar aparıb, ha-

### Sülh üçün Çinə üz tutulur...

belə Ukrayna-Çin münasibətlərini müzakirə edib. Kulebanın səfəri Rusiyanın 2022-ci ilin fevralında Ukraynaya qarşı başlatdığı və Çinin açıq şəkildə pisləmədiyi genişmiqyaslı müharibədən sonra yüksək səviyyəli Ukrayna rəsmisinin Pekinə ilk səfəridir.

Görüşdən sonra Rusiyanın dövlət xəbər agentliyi RİA "Novosti" Çin Xarici İşlər Nazirliyinin nümayəndəsinə istinadən xəbər verib ki, Kuleba Vanq Yi ilə söhbətində Ukraynanın "Rusiya tərəfi ilə danışıqlara hazır olduğunu" bəyan edib.

Göründüyü kimi, Çin öz davranışı ilə Avropa qitəsini də böyük bir qeyri-müəyyənlikdən xilas edir. Yeni dövr üçün özünün iqtisadi əsaslandırmasını təşkil və təmin etməkdə çətinliklər yaşayan Qərb üçün müharibənin bitməsi "nəfəslik" ola bilər. Çünki cəmisi iki il çəkən müharibənin iqtisadi zərbələrinə diqqət yetirdikdə itirən tərəfin yalnız Ukrayna və Rusiya olmadığı anlaşılır - tezliklə Çinin təklifi rellaşmasa bütövlükdə qitə bu müharibədən ən zəifləmiş halda çıxacaq.

**S.İSMAYILZADƏ**

# Kamala Harris - haradan, haraya...

**Co Baydenin ABŞ prezidentliyinə növbəti dəfə namizəd olmayacağı ilə bağlı xəbər əslində, gözlənilən hal idi - yaşlı və səhhəti ilə bağlı kifayət qədər problemləri müzakirə edilən “yaşlı demokrat”ın bu marafonda onsuz qələbə qazanma ehtimalı olduqca aşağı idi. Amma onu əvəz edəcək namizədin seçimi məsələsi kifayət qədər suallar yaradır...**

## İlk qadın vitse-prezidentin ilk qadın prezident olma şansı

### Ramasvarinin namizədi kim idi?

**BİRİNCİ HAŞİYƏ:** Baydenin namizəd olmayacağı ilə bağlı ilk anonslardan biri bu ilin fevralında səslənmişdi. Həmin vaxt prezidentliyə namizədlik yarışından çəkildiyini elan edən hind əsilli Vivek Ramasvami “Bayden Demokratların namizədi olmayacaq. Mişel Obamanı qarşılamağa hazır olun”, - deyə “X”sosial şəbəkəsində (keçmiş “Twitter”) yazmışdı. O, həmçinin “Fox News”a verdiyi müsahibədən bir fraqment yerləşdirmişdi və bu zaman həmin fikrini təsdiqləyirdi. “Bayden namizəd olmayacaq. Keçən il bu barədə danışdım, amma insanlar məni sui-qəsd nəzəriyyəçisi olduğumu söylədilər və indi bu, getdikcə daha aydın görünür”, - deyə Ramasvami qeyd etmişdi.

Ramasvaminin proqnozunun yalnız birinci hissəsi öz təsdiqini tapdı. Yəni həqiqətən də Bayden yenidən namizəd olmadı. Amma onu bu yarışda əvəz edəcək şəxs Mişel Obama deyil, Kamala Harris oldu. Səbəblərini aşağıda izah edəcəyik...

**İKİNCİ HAŞİYƏ:** Tanınmış siyasi simalardan biri bildirmişdi ki, son dövrlərdə Qərbin seçki trendinə yanaşmasında fərqlər gözə dəyir. Onların seçki ilə bağlı mövqeləri ondan ibarətdir ki, seçki prosesində bir namizəd qadın olmalıdır. Bu, Qərbin seçki yanaşmasıdır və bu kriteriyalara uyğun gəlməyən seçkilər artıq Qərb tərəfindən boykot ediləcək və ən yaxşı halda bəyənilməyəcək...

Ramasvaminin “namizəd proqnozunda” Mişel Obamanın adının yer alması bəlkə də bu yeni trendin nəticəsi idi. Amma onun həqiqətən namizəd olmaması tamam fərqli ştrixlərə söykənir. Ən azından ABŞ tarixinin ilk qaradərili prezidentinin həyat yoldaşı olan Mişel Obama siyasi proseslərdə aktiv olmalı, məşhur lətifədə deyildiyi kimi lotereyada maşın udmaq üçün bir lotereya bileti almalı idi. Başqa sözlə, Barak Obamanın Ağ Evi tərk etməsinin ardından heç bir “siyasi tamaşa”larda gözə dəyməyən Mişel Obamanın namizəd olması da seçki nəticələrində əyləncəli trend olmaqdan uzağa gedə bilməyəcəkdi...

### Nə Bayden, nə də Albert Qor...

Baydenin əvəzedicisi olan Kamalla Harris barədə avtobioqrafik məlumatlara keçməmişdən öncə, onun son 20 illik ABŞ tarixində hər hansı bir xüsusi addımları ilə yadda qalan vitse-prezident kimi xatırlanmayacağını önə çəkərdik. O, nə Obama administrasiyasında 8 il vitse-prezident olmuş Bayden qədər güclü fiqur ola bilmədi, nə Klinton administrasiyasında ikinci şəxs olan Albert Qor qədər nüfuz qazanmadı. ABŞ politoloqlarının “tarixin ən güclü vitse-prezidenti” Dik Çeynini heç demirik...

Bu mənada, Harrisin namizədliyi bir az “göydəndüşmə” də sayıla bilər. Qərb siyasi texnoloqlarının fikrincə, seçkilərə daha çox nüfuza malik Blinkenin deyil Harrisin namizəd kimi qatılması çox mətləbdən xəbər verir:

- Ukrayna düyünündə aciz qalmış “Demokrat iqtidar” 2024 seçkilərini uduzduğunu böyük reallıqla dərk edir. Bu mənada, Harrisin namizəd kimi seçilməsi epizodik effekt daşıyır;
- Qərb-Avropa münasibətlərini kəskin hala gətirən Bayden administrasiyası hazırkı vəziyyətdə “reanimasiyadadır” kimi bir dəyərləndirmə qazanıb. Hazırkı situasiyanı ABŞ cəmiyyətinə unutdurmaq üçün məğlubiyyət ən yaxşı çıxış yoludur - bu məğlubiyyəti isə Harrisdən yaxşı heç kim bacarmayacaq;
- Nəhayət, irəli sürülən namizədin spesifik təcrübəsi hüquqşünaslıqdır - amma hər kəs anlayır ki, qarşıdakı dönəmdə ABŞ-ın bir nömrəli iqtisadi rəqibinin qarşısında ayaqda tutmaq üçün hüquqi biliklər bəs etmir.



### “İlk”lərin vitse-prezidenti...

Kamala Harris vitse-prezident olduğu 4 ildə heç də yüksək performansla yadda qalmadı. Güclü profil yarada bilməməklə yanaşı, xarici siyasət yönləndirilməsində də hazırkı dövlət katibinə açıq fərqlə uduzurdu. Qərb siyasətçilərinin fikrincə, Harris üzərinə düşən vəzifələri belə layiqli şəkildə yerinə yetirə bilməyib. Hətta bu kimi komponentlər Trampın qarşıdakı təbliğat dövrü üçün əsas kompramatları sayılır.

Siyasi karyerasında bir çox ilklərə imza atan Harris həm də ABŞ tarixinin ilk qadın vitse-prezidenti olmaqla yanaşı, həm də ilk qaradərili vitse-prezident kimi tarixə düşüb. Atası yamaykalı, anası isə hindli olan Harris hüquq müdafiəsi sahəsində olduqca yeyin addımlarla irəlilədi - 2003-cü ildə San-Fransisko bölgə prokuroru seçilməklə uğur nərdivanına ilk qədəmini qoydu. Bu vəzifəyə yüksələn ilk qara dərili və asiya kökənli qadın kimi ABŞ tarixinə düşdü. 2011-2016-cı illər arasında Kaliforniyanın baş prokuroru işlədi. Bu vəzifədə olduğu müddətdə özünü yaxşı hüquq bilicisi kimi tanıtdı. 2016-cı ildə Demokratlar partiyasından Kaliforniyadan senator seçildi. Senatda ifadə verənləri aqressiv şəkildə dindirməsi ilə tanındı. Harris senatorluğu boyunca dövrün ABŞ prezidenti Donald Trampın Yaxın Şərq siyasətinə müxalifliyi ilə “şöhrət qazandı”. Trampın ABŞ ordu bölmələrini Suriyadan geri çəkmək qərarı ilə razılaşmayan Harris özünü irqçiliklə mübarizədə ön plana çıxardı.

### Zəif bənd, yoxsa siyasi keçid kampaniyası...

Vitse-prezident kimi ilk vəzifəsi isə Meksikada məskunlaşmış mühacir problemi ilə bağlı məsələ oldu. Amma sərhəd bölgəsinə ilk səfəri aylar sonraya təsadüf etdi ki, bu da onun ilk vəzifəni düzgün həyata keçirməməsi fonu yaratdı. Hətta təmsil etdiyi partiyada belə bununla bağlı etirazlar səsləndi. İlk rəsmi xarici səfərini isə Qvatemalaya etdi. Qvatemalalı köçkünlərin üzünə ABŞ-ın qapılarının bağlı olduğunu bildirdi. Partiyasından bu açıqlamaya da etiraz özünü gözlətmədi - Aleksandro Kortez Harrisin sözlərindən məyus olduğunu bildirdi. 2021-ci ildə isə prezident Baydenlə aralarında siyasi çəkişmələr başladı. Hətta Harrisin Meksika sərhəddindəki mühacir problemi kimi xırda məsələlərə qəsdən göndərildiyi irəli sürüldü. İddialar Ağ Ev tərəfindən təkzib olundu. Harrsin vitse-prezident kimi daxili auditoriyada ən çox diqqətində olan məsələ isə nə qədər qəribə görünsə də “qadın abortu” məsələsi olub...

Beləliklə, məğlubiyyəti indidən pronozlaşdırılan Harrisin niyə bu “qaynar qazana” atılması sualı ortaya çıxır ki, buna da cavabı elə Qərb mətbuatı verir. Qərbli siyasət adamlarının fikrincə, Harrisin hazırkı dönəmdə “siyasi qurban”a çevrilməsi qarşıdakı seçkilərdə daha fərqli və pozitiv obrazda ortaya çıxa bilmə ehtimalına malik Blinken üçün yaşıl işıq yandırılmasına xidmət edir...

**P.İSMAYILOV**

# Öz budağından yıxılan ağac

## Onore de Balzakın “Qorio ata” romanı haqqında

*əvvəli ötən sayımızda*

Yoxsullaşmış zadəgan ailəsinin övladı Ejen de Rastinyak əyalətdən Parisə hüquq təhsili almağa gəlib. Anası, bacıları boğazlarından kəsib, qəpiyi qəpiyə calayıb ona pul göndərirlər ki, tələbə aclıq-qıtlıq çəkməsin, çünki onların bütün ümidi ailənin böyük oğluna qalıb. Ejen ağıllı, dərrakəli olsa da, oxumaqdan soyuyub, onu Parisin intriqalarla, macəralarla dolu kübar həyatı özünə daha çox çəkir.

Yaxın qohumu, saraya qədər ən yüksək dairələrə əli çatan vikontessa de Boseanın himayədarlığı sayəsində Ejen kübar cəmiyyətin məclislərinə dəvət alır, üstəlik, Qorio atanın kiçik qızı, nüfuzlu qohumunun heç də rəğbət bəsləmədiyi Delfina de Nusingenin də həmin məclislərə yol tapmasına nail olur. Əvvəlcə gəncin quşu Qorionun böyük qızı təkəbbürlü Anastaziyə qonsa da, qadının Markiz de Tray adlı pozğun, vicdansız məşuqundan kölə asılılığı, üstəlik, kübar məclisdə qrafinya de Restoya atasıyla bir pansionda qaldığını xatırlatması onun istəyi qarşısına çəpər çəkir. Bundan sonra Ejen himayədarının məsləhətiylə bacılar arasındakı rəqabətdən yararlanıb, oynaşından ayrılandan bəri müvəqqəti “boş” qalmış Delfinanın məşuquna çevrilir. Əlbəttə, Rastinyakın əlində yüksək cəmiyyətin açarı olmasaydı, bu birlik də baş tuta bilməzdi.

Onların aşiq-məşuqluğu Qorio atanın da ürəyindəndir. Kürəkənləri çoxdandır onu öz dədəbəbəli evlərinə buraxmırlar, bu səbəbdən qoca naxələf qızlarını görməkdən ötrü min hoqqadan çıxır, onların keçib gedəcəyi yolların üstündə, onların gəzib dolaşacağı parkların küncündə bitir. Qızlarsa kasıb görkəmindən utandıqları atalarına nəzər salmaqdan belə çəkinirlər, balaları şütüdükləri karetanı yavaşıtmadan qocaya uzaqdan salam göndərəndə zavallı ata uçmağa qanad axtarır. Kürəkənləri, qızları ona nə qədər sitəm eləsələr də, Qorio ata bu acıların hamısını udur, onun gön çarıq kimi sürtülmüş ürəyi hər cür həqarətə davam gətirir.

Nəhayət, onlar köməkləşib Ejenlə Delfinanın gizli görüşməsi üçün xudmani bir mənzil alırlar. Qorio ata əsər boyu heç vaxt görmədiyimiz qədər məsuddur, indi o da həmin mənzilin bir küncündə, daha doğrusu, çardağındakı quş damında yaşayacaq, ərini aldadıb məşuqunun ağuşuna qaçan qızını tez-tez görəcək. Onun Ejenə rəğbəti də yoxsul tələbənin qızı Delfinanın işinə yaradığına görədir. Qorio ata bütün vasitələrlə onları bir-birinə daha sıx bağlamağa çalışır, Ejeni pansiondakı atılmış gənc qız mademuazel Tayferə qısqanır, hətta Delfinanın köhnə məşuqu kimi qızından soyuyarsa, onu öldürəcəyi ilə hədələyir; hərçənd eşqin məstliyi başına vurmuş tələbəyə hədə-qorxu gəlməyə artıq heç bir ehtiyac qalmayıb.

Fəqət bu birgəlik sevgi yox, maraq üstündə qurulub, ona birlikdən çox əməkdaşlıq demək olar. Qorionun Ejendən ötrü qayğılanması dünyagörmüş bir qocanın həyatın astanasında olan saf bir gəncə səmimi bağlılığından yox, bala sədaqətinə, övlad itaətinə təşnə atalıq ehtirasını doyurmaq istəyindən irəli gəlir.

***

Pansionun daha bir sakini keçmiş katorqa məhbusu, təhlükəli residivist, kriminal aləmin xəzinədarı, Votren adı altında gizlənmiş Jak Kolendir. Orta yaşlı bu adam İblisin ta özüdür, başında tüğyan eləyən cəhənnəm fırtınalarını yad nəzərlərdən qoruyan parikinin altında, tükü tükdən seçən öldürücü gözlərinin, adamı sanki soyunduran arsız baxışlarının arxasında məharətlə gizlənir. Ölümün özü belə ona bata bilmir, Votrenin bir ləqəbi də “Ölümaldadan”dır. O, fələyin çarxını fırlayan qocaman ölümü özünün ağasından nökərinə çevirib, ölüm onun əlində öldürücü silaha dönüb.

Votren peşəkar bir iblis kimi Ejenə Şeytanın işləklərindən, Fələyin felindən ustad dərsi keçir, ona yırtıcı cəmiyyətdə özünə yol açıb məqam tutmağın çəmini, yöndəmini öyrədir. Boynuna alır ki, Ejenə potensial yem kimi baxır, saf bir gəncin İblis üçün ən ləziz təam olduğunu tələbənin üzünə söyləməkdən çəkinmir. Özü haqqında isə belə deyir: “Mən Benvenuto Çellininin xatirələrini oxumuşam, özü də italyanca. Çellini başkəsən, yolkəsən bir adam idi, mən ondan dərs götürmüşəm, hər addımda fələk kimi can almağı ondan öyrənmişəm”. Müəllif təhkiyəsinin bəzi məqamlarında Votreni açıq mətnlə “İblis” adlandırır. İblis nədir - cümlə xəyanətlərə bais...

Votrenin də möhtəşəm bir xəyanət planı var. Pansionun gənc sakini mademuazel Viktorina Tayfer milyonçu bir bankirin qızıdır. Ancaq atası ondan üz döndərib, bütün varidatını tək oğluna vəsiyyət eləyib. Pansionda bu qız ona himayədarlıq eləyən qadınla - mərhum anasının rəfiqəsi madam Kutürlə bir yerdə qalır. Mademuazel Tayferin Ejenə rəğbət bəslədiyi, bəlkə də onu gizli bir istəklə sevdiyi aşkar hiss olunur. Amansız Votrenin mübhəm, müdhiş planına görə, Ejenlə Viktoriyanı evləndirmək, bundan əvvəlsə qızın qardaşını sıradan çıxarmaq lazımdır. O zaman mademuazel Tayfer bir gecənin içində atasının yığdığı milyonların şəriksiz varisi olacaq, bu vəsilə ilə Ejen də milyonçular cərgəsində yer alacaq.

Oğlanı Votren cinayət ortaqlarının əliylə duelə cəlb elətməklə aradan götürdəcək - ondan ötrü belə qaranlıq işləri qurub-qoşmaq bir su içimi qədər, adam öldürməksə, özü demiş, tüpürmək qədər asandır. “Ölümaldadan” öz planının mənəvi-əxlaqi platformasını, metafizik əsaslarını da hazırlayıb: mademuazel Viktorinanın bankir atası böyük sərvətə öz şərikini aradan götürtməklə yiyələnib, qızın qardaşı isə ehtiyac içində yaşayan bacısına bircə dəfə baş çəkməyib, ona beşcə frank pul göndərməyib. Odur ki, onların qanı halaldır, xoşbəxtlik, rifah məsum qızın haqqıdır.

Bütün kombinasiyanı qurub-qoşan Votrenin şərti budur ki, Ejen ona Amerikaya köçüb orada yeni həyata başlamaq, biznes qurmaq üçün iki yüz min frank maya verəcək. Milyonların müqabilində bu məbləğ elə çox deyil.

***

Hələ o dərəcədə pozulmamış, mənəvi bakirliyini itirməmiş Rastinyak bu oyunda oynamağa razılıq verməsə də, Şeytan artıq iş başındadır, fələyin çarxı işə düşüb. Ejen Votrenin müdhiş planını pozmaq üçün Qorio atanı Tayferin evinə göndərmək, bu yolla məkrli planı faş eləyib vicdanından ləkəni silmək istəyir, ancaq qoca onun həyəcanla çatdırdığı xəbəri olduqca laqeyd qarşılayır: nə olsun, bundan sənə nə? Övladlarına divanətək bağlı olan bir qoca başqasının övladına yönəlmiş nahaq gülləni hədəfdən yayındırmaq üçün xırdaca bir zəhmətə qatlaşmaq istəmir. Qocayla gəncin söhbətinə qulaq müsafiri olan İblis Ejenin niyyətindən duyuq düşüb tələbənin qədəhinə yuxu dərmanı atır.

Tezliklə pansiona adam göndərib mademuazel Tayferi atası evinə çağırırlar. Təbii ki, məsum qız qurulmuş plandan, bir gecədə bunca sərvətə əlini kimin çatdırdığından xəbərsizdir. Ejen isə yalnız ayılandan sonra hadisədən xəbər tutur, onda da artıq iş işdən keçmiş olur. Fəqət Viktorinayla evlənməkdən Rastinyak qətiyyətlə imtina eləyir, Delfinanı pula, cehizə dəyişmək istəmir. Çünki həlalik təmizdir, safdır. Sonrakı illərdə o da şeytan fəhləsinə çevriləcək, cin-şəyatin ordusuna qoşulacaq...

Votrenin də qəhvəsinə dərman atan tapılır. Pansionda yaşayan iki nəfər pul müqabilində polislə əməkdaşlığa razılaşıb onu ələ verir. Katorqalının çiynində damğa olduğu təsdiqini tapır. Polislər Votreni tutmaq üçün pansionu qurşayanda amansız cani onu satanların kim olduğunu dərhal anlayır, daş dələn baxışlarıyla düz onların sifətinə zillənir.

Pansionun gənc sakinləri satqınlarla bir yerdə qalmağa qəti etiraz eləyirlər, madam Voke məcbur olub o iki nəfəri - müsyö Puare ilə mademuazel Mişonoru pansiondan çıxarır. Kriminal aləmin liderini ələ vermiş yerəbaxan qocayla qarımış qızın aqibətinin fəna olacağı yəqin heç kəsdə şübhə doğurmaz...

***

Rastinyakın pansion yoldaşı, tibb üzrə təhsil alan gələcək doktor Byanşon dostunun qəlbində gedən təbəddülatları, onun mənəviyyatının tənəzzülə uğrama prosesini diqqətlə izləyir, bəzən onun keçirdiyi hallara tibbi diaqnoz da qoyur. Əsərin sonuna doğru Rastinyak iki yol ayrıcındadır - o ya Byanşon kimi elm dalınca gedib namuslu əməklə məşğul olmalıdır, ya da Votrenin təlimatlarına uyub, qanı heç vaxt qurumayan savaş meydanına girməlidir. Qorio atanın acınacalı aqibəti onun seçiminə həlledici təsir göstərir.

Qoca pansionun dördüncü qatındakı ən ucuz, soyuq, it damından seçilməyən otağa köçəndən sonra da qızları onu rahat buraxmırlar. Qorio əlində qalmış sonuncu sərvətini - gümüş qab-qaşığı da satıb onların nəfsinə yedirəndən sonra tamam lüt qalır, yeməyə yavan çörək də tapmır. Atanın bu günündə, bu halında qızları onun yanında üz-üzə gəlib pul üstündə qırğına çıxırlar, bununla da Qorioya sonuncu ölümcül zərbəni vururlar. Qoca bu zərbədən ayılmır.

Can verən Qorionun gözləri yolda qalsa da, qızları onunla vida görüşünə gəlmirlər, çünki həmin axşam vikontessa de Boseanın evində vida balı təşkil olunub, bacılar bir-birinin acığına həmin balda mütləq iştirak eləməli, oynayıb şənlənməlidirlər. Ejen Delfinaya atasının vəziyyətiylə bağlı nəsə demək istəyəndə qadın onun sözünü ağzından qaytarır. Bəs necə, belə möhtəşəm məclis qabağı xanımın ovqatını korlamaq olmaz!

Vikontessanın məşuqu ondan xəbərsiz varlı bir qızla evlənir, bu səbəbdən madam de Bosean sonuncu qonaqlığını verib inzivaya çəkilir, bir daha Parisə qayıtmamaq, qalan ömrünü bu ehtiras bataqlığından kənarda keçirmək şərtilə əyalətə köçür. Kübar xanımlar onun yazıq, miskin halına tamaşa eləmək, onun dərdindən zövq almaq üçün bu bala xüsusi həvəslə qoşulublar. Parisə gələndən sonra Rastinyak da anlayıb ki, bu dünyada asudə, dinc həyat yaşayan xoşbəxt, müqəddəs insan varsa, onu böyük şəhərlərin səs-küyündən uzaqlarda, hansısa dağ yamacında, bulaq başında, çay qırağında, sıx meşədə axtarmaq lazımdır. Paris savaş meydanı, əxlaq bataqlığı, ölüm tələsidir.

***

Əcəl yatağında sayıqlayanda Qorio ata övlad haqqında bildiyi, amma heç vaxt dilə gətirmədiyi nə varsa hamısını deyib ürəyini boşaldır. Deyir ki, pulum olsaydı, qızlarım başımın üstündən çəkilməzdilər. Deyir ki, qanunlara düzəliş eləmək lazımdır, övladın ata qarşısında borcu qanunun tələbiylə ödənməlidir. Deyir ki, ata övladına həyat verir, övlad isə atasına ölüm gətirir.

Qızları Qorionun nəinki son nəfəsinə, heç dəfninə də gəlmirlər. Rastinyakın kürəkənlərlə danışığı da boşa çıxır, onlar qocanın dəfn xərclərinin ödənməsi üçün bir quruş belə ayırmırlar. Beləcə, Qorionun qızlarına mövhumi bir ehtirasla tapınması, övlad kultuna sitayiş eləməsi nə onun özünə, nə də balalarına xoşbəxtlik gətirir, tam tərsinə, kor pərəstiş onun nəslinin düçar olduğu böyük fəlakətin təməlinə çevrilir.

Qızlarına milyonlar xərcləmiş, onları milyonçuya ərə vermiş Qorio ata məzara üç-dörd kasıb tələbənin çiynində, onların topladığı qəpik-quruş hesabına köçür. Bundan sonra Ejen de Rastinyak zirvədən baxdığı Parisə meydan oxuyur, alçaqlıq, əclaflıq qanunlarıyla idarə olunan cəmiyyətə savaş elan eləyir, qeyri-bərabər savaşın ilk addımlarını atır, ilk hücumuna keçir.

Bu savaşda o, əlbəttə, məğlub olacaq; çünki Balzak dövrə vuran həyatın, fəsillər boyu fırlanan təbii saatın, fələyin sınıq çarxının şən qanunlarıyla, Şopenhauerin dediyi sayaq dəli, kor iradənin çılğın əsintiləriylə hərəkətə gəldiyinə möhkəm inanır. Zər tutan fələyi qumarda udmağın yeganə yolu o qumara girməməkdir.



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Dost dosta tən gərək...

## Beynəlxalq Dostluq Günüdür

*Yeganə BAYRAMOVA*

İnsanların ən nəcib və misilsiz hisslərinin təzahürü olan dostluğun bəşəriyyət üçün böyük əhəmiyyəti var. Hər birimizin həyatımızı, düşüncələrimizi, hisslərimizi, sevinclərimizi və məyusluqlarımızı paylaşa biləcəyi birinə ehtiyacı var. Dünyanın elə bir guşəsi yoxdur ki, orada dostsuz-yoldaşsız yaşamaq mümkün olsun.

Təbii ki, hamı ilə dost olmaq mümkün deyil. Bu baxımdan dost seçimində ilk öncə ağlımız, yəni həyata baxışımız dost olacağımız insanla uyğun olmalıdır. Bizi başa düşə bilən, hisslərimizi paylaşan, lazım olanda bizə dəstək olan, hər şeydən əvvəl bizi incitmədən səhvlərimizi söyləyən insanlarla dost olmalıyıq.

Bəlkə elə buna görədir ki, 2011-ci ildə Paraqvay Respublikasının təşəbbüsü ilə BMT-nin Baş Məclisi iyulun 30-nu Beynəlxalq Dostluq Günü elan etdi. Qurumun üzvü olan ölkələrdə Dostluq Gününün qeyd olunmasının Baş Məclis tərəfindən tövsiyə edilməsi həm də xalqlar, ölkələr, mədəniyyətlər arasında sülh səylərini ruhlandırmaq və icmalar arasında körpülər qurmaq ideyasından irəli gəlirdi.



**Yaxınlıq və oxşarlıq...**

Dostluğun formalaşmasında ən vacib amillərdən biri yaxınlıqdır. İnsanlar bir-birinə fiziki cəhətdən yaxın olduqda, məsələn, eyni məhəllədə yaşayırlarsa, eyni məktəbdə oxuyur və ya eyni iş yerində işləyirlərsə, daha çox dostluq edirlər. Bundan əlavə, oxşarlıq da dostluğun inkişafında rol oynayır. Biz ümumi maraqları, dəyərləri və münasibətləri paylaşdığımız biri ilə dost olmağa meyl edirik.

**Qarşılıqlılıq və güvən...**

Qarşılıqlılıq dostluğun mühüm aspektidir. Balanslaşdırılmış duyğular, dəstək və lütf mübadiləsi dostlar arasındakı bağı gücləndirir. Dostluqda güvən də vacib ünsürdür. Çünki güvən əsl dostluğun mühüm göstəricilərindən sayılır.

**Emosional dəstək və empatiya...**

Dostluğun əsas funksiyalarından biri emosional dəstək verməkdir. Dostlar dinləmək, empatiya qurmaq və həyatdakı çətinliklərin öhdəsindən gəlməyə kömək etmək üçün yanımızdadırlar. Belə ki, başqalarının keçirdiyi hisləri başa düşmək və bölüşmək bacarığı güclü bir dostluq əlaqəsinin olduğunu sübüt edir.

Münaqişələrin həlli və ünsiyyət...

Dostlar münaqişələrdən və fikir ayrılıqlarından qorunmur. Onların baş vermiş münaqişələri necə həll etmələri və hislərini ifadə etmələri dostluq münasibətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Effektiv ünsiyyət, aktiv dinləmə və konfliktləri konstruktiv həll etmək bacarığı sağlam dostluq münasibətlərinin qorunması üçün vacibdir.

# Tarixi Abidələrin Bərpası Məktəbi beynəlxalq müsabiqənin qalibi olub



“İçərişəhər” Dövlət Tarix-Memarlığı Qoruğu İdarəsinin təşəbbüsü ilə yaradılan Tarixi Abidələrin Bərpası Məktəbi (Mak’TAB) UNESCO-nun himayəsi altında fəaliyyət göstərən Asiya və Sakit Okean Regionu üçün Ümumdünya İrs Təlim və Tədqiqat İnstitutunun təsis etdiyi beynəlxalq müsabiqənin qalibi olub.

Qoruq İdarəsindən bildirilib ki, “Ümumdünya İrs Təhsilində İnnovativ Nümunələr üçün Qlobal Mükafatlar” müsabiqəsinin “Star of Discovery” kateqoriyası üzrə mükafata layiq görülən Mak’TAB, dünya üzrə 100-dən çox iştirakçı arasından seçilib.

Mükafatın təqdimetmə mərasimi Hindistanda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 46-cı sessiyası çərçivəsində təşkil olunan tədbirdə baş tutub. Bununla yanaşı, eyni tədbirdə Tarixi Abidələrin Bərpası Məktəbi ilə bağlı təqdimat keçirilərək, Mak’TAB qonaqlara “Nümunəvi keys” qismində göstərilib.

Mak’TAB “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Dövlət Turizm Agentliyi və Azərbaycan Memarlıq və İnşaat Universiteti tərəfindən həyata keçirilən birgə işlərə dəstək göstərmək məqsədilə yaradılıb. Tarixi Abidələrin Bərpası Məktəbi Azərbaycanda bərpaçıları təlimə cəlb edərək, onlara tarixi abidələrin bərpası istiqamətində əlavə biliklər verir.

Qeyd edək ki, Ümumdünya İrs Təhsilində İnnovativ Nümunələr üçün Qlobal Mükafatlar (“Global Awards for World Heritage Education Innovative Cases - AWHEIC) 2022-ci ildə Ümumdünya İrs Konvensiyasının 50-ci ildönümünü qeyd etmək məqsədilə təsis olunub. Müsabiqənin əsas təşkilatçısı Çin Xalq Respublikasının UNESCO üzrə Milli Komissiyasıdır. Məqsəd dünya üzrə xüsusi əhəmiyyətə malik irs təhsili nümunələrini seçmək və qlobal irs təhsili üzrə peşəkarların dialoqu və təcrübə mübadiləsi üçün beynəlxalq platforma təmin etməkdir.



## Həvəskarlar Liqasının qalibi müəyyənləşib



Həvəskar futbolçulardan ibarət komandalar arasında təşkil olunan sayca XXV Azərbaycan birinciliyinə yekun vurulub.

“Report” xəbər verir ki, Şirvan Olimpiya İdman Kompleksinin stadionunda əvvəlcə 3-cü yer uğrunda oyun keçirilib.

Şirvanın “Şirvan OİK” komandası Bakı təmsilçisi “Dirçəliş”i 3:2 hesabı ilə məğlub edərək, bürünc mükafata yiyələnib.

Ardından Mingəçevirin “Ulduz” və Ağcabədinin “Olimpiya” kollektivləri finalda üz-üzə gəliblər. 2:2 hesabı ilə başa çatan matçda qalib penaltilər seriyası ilə müəyyənləşib. Bu zərbələri daha dəqiq yerinə yetirən “Olimpiya” (4:2) Həvəskarlar Liqasının 2023-2024-cü il mövsümünün qalibi olub.

Daha sonra mükafatlandırma mərasimi keçirilib. Komandalara medallar və diplomlar, birinciliyin qalibinə isə kubok təqdim olunub.

Bundan başqa, I, II və III yerin sahibi olan komandalar müvafiq olaraq 5000, 3000 və 2000 manat mükafat alıblar.

Mükafatları Regional Futbol Federasiyasının prezidenti İsgəndər Cavadov, Azərbaycan Həvəskarlar Futbolu Federasiyasının prezidenti Rüfət Əmirov, baş katib Füzuli Nəcəfov və futbol veteranı Asif Əliyev təqdim ediblər.

Qeyd edək ki, həvəskar futbolçulardan ibarət komandalar arasında Azərbaycan Kubokunun final oyunu avqustun 11-də Ağcabədi Olimpiya İdman Kompleksində keçiriləcək.

## “Paris-2024”: Azərbaycan badmintonçusu növbəti görüşünü keçirib



Azərbaycanın qadın badmintonçusu Keişa Fatimə Zəhra “Paris-2024” Yay Olimpiya Oyunlarında növbəti görüşünü keçirib.

AZƏRTAC xəbər verir ki, N qrupunda yer alan idmançı ikinci matçında Böyük Britaniya təmsilçisi Kirsti Gilmurla qarşılaşıb.

Rəqibinə hər iki setdə məğlub olan Azərbaycan təmsilçisi mübarizəni dayandırıb - 0:2 (13:21, 11:21). O, ilk görüşündə dünya reytinqinin ilk “onluğ”unda qərarlaşan Çin idmançısına uduzub - 0:2 (21:8, 21:7).

Qeyd edək ki, olimpiadada badminton yarışları iyulun 27-dən avqustun 5-dək təşkil olunacaq.

## Avropa çempionatı: Azərbaycan basketbol millisi gümüş medal qazanıb



Azərbaycanın basketbol millisi Kosovonun paytaxtı Priştina şəhərində 18 yaşa qədər qızlar arasında keçirilən Avropa çempionatının “C” divizionunda final oyununa çıxıb.

AZƏRTAC xəbər verir ki, yığma bu mərhələdə Kosovo seçməsi ilə qarşılaşıb. Milli komanda rəqibinə 65-75 hesabı ilə məğlub olaraq Avropa çempionatı “C” divizionunun gümüş medalını qazanıb.

## AFFA rəsmisi Gürcüstan klubunun oyununa təyinat alıb



AFFA-nın Uşaq və Gənclər üzrə Yarışların təşkili şöbəsinin baş mütəxəssisi Zümrüd Ağayeva UEFA-dan növbəti təyinat alıb.

“Report” milli assosiasiyanın rəsmi saytına istinadən xəbər verir ki, o, Albaniyada yerli “Partizani” və Gürcüstanın “İberia” komandaları arasında keçiriləcək Konfrans Liqasının II təsnifat mərhələsinin cavab matçında UEFA nümayəndəsi olacaq.

Qeyd edək ki, avqustun 1-də Elbasan şəhərinin eyniadlı stadionunda təşkil olunacaq görüş Bakı vaxtı ilə saat 22:00-da başlayacaq.

## Azərbaycanın oğlanlardan ibarət basketbol millisi Avropa çempionu olub



Albaniyanın Elbasan şəhərində 18 yaşa qədər oğlanlar arasında keçirilən basketbol üzrə Avropa çempionatı C divizionunda Azərbaycan millisinin final oyunu baş tutub.

“Report” xəbər verir ki, yığmamız həlledici matçda Lüksemburq seçməsi ilə qarşılaşıb.

Gərgin mübarizə şəraitində davam edən oyun təmsilçilərimizin 77:71 hesablı qələbəsi ilə yekunlaşıb.

Qeyd edək ki, Azərbaycanın U-18 millisi son olaraq 2016-cı ildə Avropa çempionatı C divizionunun qalibi olmuşdu.

## Bədii gimnastlarımız Belarusda 4 medal qazanıblar




Azərbaycanın bədii gimnastları Belarusun Minsk şəhərində keçirilən “Crystal Rose - Helen Valery” adlı qran-pri yarışında 4 medal qazanıblar.

Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iki gün davam edən turnirdə milli komandanın 4 üzvü qüvvəsini sınayıb.

Gənclərin mübarizəsində Şəms Ağahüseynova 3 dəfə fəxri kürsüdə yer alıb. O, top (29,000), gürzlər (28,300) və lent (27,600) proqramlarının hər birində bürünc mükafata layiq görülüb. Yeniyetmələrin yarışında isə Azadə Atakişiyeva fərqlənib. İdmançı halqa ilə (29,450) hərəkətlərin icrasında üçüncü yeri tutub.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4376**
**Sifariş: 1733**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli